20 dekabr 2024 №94-95 (2160)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Qarşılıqlı iddiaları kənara qoymaq hər iki tərəf üçün qəbuledilməndir



Bu gün Rusiya və Azərbaycan iki etibarlı tərəfdaşdır. Ölkələrimiz üçün çətin vaxtlarda biz həmişə həm vəziyyətin dərk olunmasını nümayiş etdirmişik, həm də özümüzü dostcasına aparmışıq. Əminəm ki, bundan sonra da belə olacaq.

Prezident İlham Əliyev bu sözləri dekabrın 17-də "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibəsində deyib.

Dövlətimizin başçısı qeyd edib ki, 2022-ci ilin fevralında iki ölkə arasında "Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyanname"nin imzalanmasından ötən müddətdə regionda və dünyada vəziyyət əhəmiyyətli dərəcədə dəyişib, lakin bu, Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın xarakterinə və formasına təsir etməyib: "Hesab edirəm ki, belə bir Bəyannamənin imzalanması bizim 30 ildən artıq bir müddətdə birlikdə keçdiyimiz, fəal işlədiyimiz, həm iqtisadi-ticari, həm də siyasi sahələrdə əməkdaşlıq potensialını artırdığımız və müxtəlif çətin vəziyyətlərdə bir-birimizi sınadığımız həmin böyük yolun nümayiş etdirilməsidir".

Prezident diqqətə çatdırıb ki, bu ilin avqustunda Rusiya rəhbəri Vladimir Putinin Azərbaycana dövlət səfəri çərçivəsində münasibətlərin müttəfiqlik xarakteri bir daha təsdiqlənib: "Biz münasibətlərimizin inkişafından məmnunuq, onları yüksək qiymətləndiririk və əminəm ki, bu müsbət dinamika gələn ildə də qorunub saxlanılacaq".

Prezident İlham Əliyev müsahibədə regional və beynəlxalq gündəmin aktual məsələləri, o cümlədən Azərbaycanla Ermənistan arasındakı münasibətlərlə bağlı suallara cavab verib.

### Bəzi dövlətlərin Ermənistana dəstəyi barədə: adekvat tədbirlər görürük

Bu, birbaşa təhlükə deməkdir, biz bu barədə həm açıq şəkildə, həm də Ermənistanın Baş naziri ilə danışıqlarımda dəfələrlə demişik, narahatlığımızı ona çatdırmışıq. Biz eyni narahatlığı Fransa hökumətinə və Bayden administrasiyası dövründə Cənubi Qafqaz ölkələrinə balanslı yanaşmasını dəyişərək Ermənistana birtərəfli dəstək yolunu tutan Birləşmiş Ştatların rəhbərliyinə də çatdırırıq. Təhdidlərin kifayət qədər ciddi olduğunu göstərən çoxlu misallar var. Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır. Nəzərə alsaq ki, Ermənistanla sərhədimizin uzunluğu min kilometrdən çoxdur, bir çox yaşayış məntəqələri sərhədə yaxın yerləşib və bu yaşayış məntəqələrinin əksəriyyətinə keçmiş köçkünlər qayıdırlar, təbii ki, biz bu prosesi yalnız kənardan müşahidə edə bilmərik.

davamı səh. 2-də

## Azərbaycanın mədəniyyət elçiləri – görüş yeri Roma

### Məqsəd həmvətənlərimizin yaradıcı səylərini daha dolğun məcraya yönəltməkdir

Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı mədəniyyət xadimlərini bir araya gətirmək, onları doğma Vətənin mədəni irsinin, incəsənətinin təbliği, eyni zamanda özlərinin yaradıcılığının tanıdılması üçün səylərini daha dolğun məcraya yönəltmək məqsədilə daha bir təşəbbüs həyata keçirilir.



Dekabrın 18-də İtaliyanın Roma şəhərindəki Azərbaycan Mədəniyyət Mərkəzində Azərbaycan Mədəniyyət Elçiləri Toplantısı olub. Tədbir Azərbaycan Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Diaspora İş üzrə Dövlət Komitəsi və ölkəmizin İtaliyadakı səfirliyinin dəstəyi ilə reallaşıb.

Bu məqsədlə mədəniyyət naziri Adil Kərimlinin rəhbərlik etdiyi nümayəndə heyəti İtaliya paytaxtına səfər edib.

Toplantıda əvvəlcə beynəlxalq müsabiqələr laureatı, dirijor və bəstəkar Abuzər Manafzadə pianoda Azərbaycanın Dövlət Himnini səsləndirib. Mövzu ilə bağlı videoçarx nümayiş etdirilib.





Azərbaycanın İtaliyadakı səfiri Rəşad Aslanov açılış nitqində ölkəmizin mədəniyyət xadimlərini Romada görməkdən məmnunluğunu ifadə edib.

Mədəniyyət naziri Adil Kərimli çıxışında tədbirdə iştirak edənlərin hər birinin mədəniyyətimizin müxtəlif sahələri üzrə xüsusi nailiyyətləri ilə seçilən, onun təbliğinə töhfə verən, harada yaşamasından asılı olmayaraq, Azərbaycan milli kimliyinin daşıyıcıları olan dəyərli həmvətənlərimiz olduğunu bildirib.

Nazir qeyd edib ki, bu şəxslərin Azərbaycanın və onun zəngin mədəniyyətinin təbliğinə verdiyi töhfələr, Vətənə bağlılığı təqdirəlayiqdir.

Diaspora İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva toplantıda iştirak edən mədəniyyət elçilərinin Azərbaycanın zəngin mədəni irsinin təbliğində müstəsna xidmətlər göstərdiyini bildiriblər.

Daha sonra toplantıda Azərbaycan mədəniyyətini xaricdə təbliğ edən sənət xadimlərinin çıxışları dinlənilib.

***

Romada bir araya gələn Azərbaycan mədəniyyətinin elçiləri şəhərin məşhur mədəni irs və incəsənət məkanlarını ziyarət ediblər. Səfər əsnasında müxtəlif görüşlər keçirilib.

Nümayəndə heyəti dekabrın 18-də Romada "Borghese" qalereyası ilə tanış olub.

Qalereyanın tarixi və buradakı incəsənət nümunələri barədə məlumat verilib. Bildirilib ki, "Villa Borghese" parkında yerləşən qalereya XVII əsrin əvvəllərində memar Flaminio Ponzio tərəfindən tikilib. Burada rəsm, heykəltəraşlıq və qədim əşya kolleksiyaları var.

Qeyd olunub ki, qalereyada məşhur sənətkarlardan Covanni Lorenzo Bernini, Mikelancelo Merisi da Karavaggio, Rafael, Titsian, Piter Paul Rubens, Aqnolo Bronzino və digərlərinin əsərləri sərgilənir. Qalereya 2014-cü ildən "dövlət muzeyi" statusu alıb.

***

Azərbaycan nümayəndə heyəti dekabrın 19-da Romadakı XXI Əsrin Milli İncəsənət Muzeyini ziyarət edib.

Ziyarət əsnasında mədəniyyət naziri Adil Kərimli muzeyin direktoru Françesko Stokki ilə görüşüb.

Naziri salamlayan direktor muzeyin tarixi və ekspozisiyası haqqında məlumat verib. Deyib ki, muzeydə müasir dövrün sənət nümunələri nümayiş etdirilir. Yerli və əcnəbi ziyarətçilər muzeyə böyük maraq göstərir.

Adil Kərimli ölkəmizin aparıcı muzey və sərgi zalları haqqında söz açıb. Bildirilib ki, Azərbaycanın muzeyləri Avropanın bir sıra muzeyləri ilə əməkdaşlıq edir. Eyni zamanda çağdaş Avropa rəssamlarının Bakıda sərgiləri təşkil olunur.

Söhbət zamanı Azərbaycan muzeylərinin XXI Əsrin Milli İncəsənət Muzeyi ilə əməkdaşlığına dair fikir mübadiləsi aparılıb.

Görüşdən sonra Azərbaycan nümayəndə heyəti muzeylə tanış olub.

***

İtaliyaya səfəri çərçivəsində nazir Adil Kərimli, mədəniyyət nümayəndələri Romadakı "Villa Borghese" parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini də ziyarət ediblər. Abidənin önünə gül dəstələri qoyulub, xatirə şəkli çəkdirilib.

Abidə Nizami Gəncəvinin 870 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 dekabr tarixli sərəncamının icrası ilə bağlı silsilə tədbirlər çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanaraq İtaliya paytaxtının məşhur parkında qoyulub. 2012-ci ilin aprelində açılışı olan abidənin müəllifləri Xalq rəssamları Səlhab Məmmədov və Əli İbadullayevdir.

mövzunun davamı səh. 2-də

## "Yeni ilə yeni kitablarla!" – paytaxtda kitab festivalı

Dekabrın 19-da "Azərbaycan Nəşriyyatçılar Assosiasiyası" İctimai Birliyinin (ANAİB) Mədəniyyət Nazirliyi ilə birgə təşkil etdiyi I Bakı Kitab Festivalı başlayıb. Paytaxtda növbəti kitab bayramı Bakı İdman Sarayında keçirilir.



"Yeni ilə yeni kitablarla!" şüarı altında keçirilən festivalda ANAİB üzvləri də daxil olmaqla 30-dan çox nəşriyyat təmsil olunur.

Açılış mərasimində çıxış edən ANAİB-in sədri Şamil Sadiq diqqətə çatdırıb ki, bu, assosiasiya tərəfindən təşkil olunan 18-ci kitab festivalıdır. İndiyədək belə festivallar Gəncə, Sumqayıt, Xırdalan, Lənkəran kimi rayon və şəhərlərdə keçirilib: "Oxucuların yazıçılarla davamlı ünsiyyəti, milli ədəbiyyatımızın yenilikləri ilə tanış olması vacibdir. Burada əsasən Azərbaycan dilində əsərlər çap edən nəşriyyatlar təmsil olunur. Məqsədimiz oxucuları Azərbaycan ədəbiyyatı ilə tanış etməkdir. Bir çox müasir yazıçıların əsərlərinin təqdimatı keçiriləcək".

Xalq şairi Sabir Rüstəmxanlı, Türkiyə Üsküdar Universitetinin rektoru Nazife Güngör, Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın sədri, Azərbaycanda Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov, Milli Məclisin deputatı Fazil Mustafa, Mətbuat Şurasının sədri Rəşad Məcid, telejurnalist, yazar, Əməkdar artist Rafiq Həşimov çıxışlarında kitab və mütaliənin təbliğinə xidmət edən bu cür təşəbbüslərin əhəmiyyətini vurğulayıblar.

Bakı İdman Sarayında kitab festivalı dörd gün davam edəcək və dekabrın 22-də başa çatacaq.

## Füzulinin 530 illiyinə həsr edilmiş konsert-kompozisiya



Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) Musiqi sənəti fakültəsinin təşkilatçılığı ilə Beynəlxalq Muğam Mərkəzində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr edilmiş "Vətənimdir, vətənim..." konsert-kompozisiyası təqdim olunub.

Tədbirin aparıcısı Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi qeyd edib ki, Füzuli sözünün işığı beş əsrdir ki, dünya ədəbiyyatını aydınladır.

Gecədə Xalq artisti, ADMİU-nun Muğam sənəti kafedrasının müdiri Teyyub Aslanov, Əməkdar artist Zakir Əliyev, Ramil Hümbətov və Vüsal Qasımov şairin qəzəlləri ilə muğam parçaları ifa ediblər. Xanəndələri Əməkdar artistlər Əliağa Sədiyev (tar), Toğrul Əsədullayev (kamança), Şirzad Fətəliyev (balaban) və Kamran Kərimovun (nağara) yer aldığı "Xarıbülbül" muğam qrupu müşayiət edib.

## UNESCO-da "Divanü lüğət-it-türk"ün 950 illiyi qeyd olunub




Türk dünyasının ən qiymətli kitablarından biri – Mahmud Kaşğarinin "Divanü lüğət-it-türk" əsərinin 950 illiyi UNESCO çərçivəsində qeyd olunub.

Dekabrın 13-də təşkilatın Parisdəki mənzil-qərargahında Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan, Türkmənistan və Macarıstanın UNESCO üzrə milli komissiyalarının təşəbbüsü, Türk Mədəniyyəti və İrsi Fondu, eləcə də UNESCO yanında daimi nümayəndəliklərin birgə təşkilatçılığı ilə "Dünyanın leksikoqrafiyada xəritələşdirilməsi: "Divanü lüğət-it-türk"ün 950-ci ildönümü" mövzusunda beynəlxalq konfrans keçirilib.

Beynəlxalq konfransa Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev moderatorluq edib.

davamı səh. 8-də




Aşıq Mikayıl Azaflının 100 illik yubiley gecəsi

səh. 5



"Ledi Maqbet" – Bəsti Cəfərovanın benefisi

səh. 5

№94-95 (2160)
20 dekabr 2024
www.medeniyyet.az



# Qarşılıqlı iddiaları kənara qoymaq hər iki tərəf üçün qəbuledilləndir

"Ermənistan bizimlə silah yarışında tab gətirə bilməz"

əvvəli səh. 1-də

Təbii ki, biz adekvat tədbirlər görməyə məcbur idik. 2025-ci ildə növbəti hərbi büdcəmiz rekord büdcə olacaq. Bu, təxminən 5 milyard dollardır. Bu məbləğin ən azı 60 faizini xərcləməyə məcburuq, belə təhdidlər olmasaydı, xərcləməzdik, Qarabağın bərpasına, sosial ödənişlərə və sair üçün istifadə edərdik. Lakin biz bunu etməyə məcburuq və edəcəyik. Məncə, bu, fəlakətə aparan yoldur. Birincisi, Ermənistan silahların əksəriyyətini Qərbdən pulsuz və ya kreditlə almasına, onların təbii ki, silinəcəyinə baxmayaraq, bizimlə silah yarışında tab gətirməyəcək. Hətta bu halda da bizimlə silah yarışında tab gətirməyəcəklər. Onlar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar. Həmçinin başa düşməlidirlər ki, Makron rejiminin, eləcə də ABŞ Dövlət Departamentinin maksimum dəstəyinə baxmayaraq, burada, bu yerdə bizə qarşı növbəti təxribat planlaşdırsalar, onlara heç kim kömək etməyəcək.

## Sülh sənədində hələ razılaşdırılmayan məsələlər

Sülh sazişi və Ermənistanın eyni vaxtda bizə qarşı silahlandırılması iki fərqli kursdur. Axı, biz, əslində, sülh sazişi üzrə böyük irəliləyiş əldə etmişik. Bu sənədin 17 maddəsinin 15-i razılaşdırılıb, ikisi qalıb. Kazanda Ermənistanın Baş naziri ilə sonuncu görüşüm zamanı eşitdiyim və hiss etdiyim o oldu ki, razılaşdırılmamış bu iki maddə də Ermənistan tərəfindən qəbul oluna bilər, mən bizim şərtlərimizi nəzərdə tuturam. Onlardan biri bir-birinə qarşı beynəlxalq iddialardan kənarda durmaqdır. Zənnimcə, bu, qarşılıqlı şəkildə qəbul olunan maddədir. Bu yaxınlarda biz vurulmuş zərərin təhlilini başa çatdırdıq, həm də bunu ətraflı etdik. Biz buna 4 il vaxt sərf etdik və orada hər şey sənədlərlə qeyd olunub. Bu, təqribən 150 milyard dollardan çoxdur, yəni, işğal illərində vurulan zərərdir. Ona görə də zənnimcə, qarşılıqlı iddiaları kənara qoymaq hər iki tərəf üçün qəbuledilləndir.

Digər maddə başqa ölkələrin nümayəndələrini bizim sərhədimizdə yerləşdirməməklə bağlıdır. Bu, niyə bizim üçün vacibdir? Çünki sözdə Avropa müşahidəçiləri pərdəsi altında bizimlə Ermənistan sərhədində NATO tərəfindən infrastruktur yaradılıb. Axı, bu müşahidəçilərin göndərilməsi məsələsi bizimlə 2022-ci ilin oktyabrında Paşinyan, Avropa Şurasının Prezidenti Şarl Mişel, Fransa Prezidenti və mənim aramda keçirilən dördtərəfli görüşdə razılaşdırılıb. O vaxt Fransa hələ bizim tərəfimizdən normallaşdırma prosesindən kənarlaşdırılmamışdı. Belə bir razılıq əldə edildi ki, Avropa İttifaqının nümayəndələrinin iki ay müddətində məhdud kontingenti olacaq. Məhz müşahidəçilərin. İki aylığına 40 nəfər yerləşdiriləcək. Bundan sonra bu missiya bizimlə razılaşdırılmadan uzadıldı və arqument bundan ibarət idi: niyə sizinlə razılaşdırmalıyıq, axı, bu missiya Ermənistan ərazisindədir. Bizim isə arqumentimiz belə idi: razılığa gələndə siz niyə bizimlə razılaşdırdınız? Axı, belə olmaz. Sonra onların sayı 200 nəfərdən çox artırıldı. Bundan başqa, bu missiya tədricən NATO-nun missiyasına çevrildi, belə ki, oraya Kanadanın nümayəndələri qoşuldu. Beləliklə, bu, bizim razılığa gələcəyimiz ikinci maddədir.

Erməni tərəfinin həyata keçirməli olduğu daha iki məqam var. Birincisi, öz Konstitusiyasını dəyişməkdir. Çünki konstitusiyada Azərbaycana ərazi iddialarının yer aldığı müstəqillik Bəyannaməsinə istinad var, burada keçmiş Dağlıq Qarabağ muxtar vilayəti Ermənistanın bir hissəsi elan olunur. Ona görə də Konstitusiyanın dəyişdirilməsi bizim istəyimiz deyil, sadəcə, obyektiv şərtdir. Bizim ikinci şərtimiz ATƏT-in Minsk qrupunun ləğvidir. Bu məsələ konsensusla həll edildiyinə görə, formal olaraq bunu Ermənistanın razılığı olmadan etmək mümkün deyil. Hərçənd ATƏT-in Minsk qrupu artıq çoxdandır fəaliyyətsizdir, amma formal olaraq mövcuddur və bizim məsələmiz ondan ibarətdir ki, əgər Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıyıbsa, Minsk qrupu isə Qarabağ məsələsinin həlli üçün yaradılıbsa, onda o nəyə lazımdır?

Prinsipcə bunlar hamısıdır, əgər bunlar həll edilsə, daha sülh sazişinin imzalanmasına heç bir maneə olmayacaq.

## Fransa ilə münasibətlərimiz niyə pozulub?

Prinsipcə, bizim Fransa ilə heç vaxt problemimiz olmayıb. Hətta deyərdim ki, Fransa ilə hər hansı bir Avropa ölkəsindən daha çox əməkdaşlıq edirdik. Bu, Fransada Makronun hakimiyyətə gəlişinə qədər idi. Mənim atam 1993-cü ildə Prezident seçildikdən sonra ilk rəsmi səfərini Fransaya edib. Çünki onlar birinci olaraq onu dəvət edirdilər. Mən Prezident olduqda, 2003-cü ildə, həmçinin ilk ölkə olaraq Fransadan dəvət aldım və birinci səfərim bu ölkəyə oldu. Sonra biz fəal əməkdaşlıq edirdik, burada çoxlu fransız şirkəti işləyirdi. Bizdə Fransanın 13 şəhəri ilə qardaşlaşmış şəhərlər var.

Amma bu əndazəsiz iddialar və Makron hökumətinin əsassız olaraq özünü böyük sayması bütün bunları uçuruma yuvarlatdı. Çünki İkinci Qarabağ müharibəsi başlayanda onlar açıq şəkildə işğalçıların tərəfini tutdular. Sonra onlar bu nəticələri hər halda qəbul etməyə məcbur oldular, amma bununla yanaşı, əllərindən gələni etdilər ki, prosesə zərər versinlər. Bu yaxınlarda baş nazir vəzifəsindən qovulmuş cənab Barnye hələ 2020-ci ildə fransız siyasətçisi qismində Qarabağa qanunsuz şəkildə səfər etmişdi. Yəni, bütün bu müdaxilə cəhdləri ona gətirib çıxardı ki, münasibətlərimiz, sadəcə, böhran həddinə çatdı, sonradan daha da pisləşdi. 2023-cü ilin sentyabrından sonra onlar beş dəfə bu məsələni Təhlükəsizlik Şurasına daşımağa cəhd etdilər və beş dəfə də uğursuzluğa düçar oldular. Bizi dəstəkləyən ölkələrin sayı onlara həmin məsələni hətta iclasın gündəliyinə salmağa da imkan vermədi. Sonra onlar Avropa İttifaqında Azərbaycana qarşı sanksiyalara cəhd etdilər. Nəyə görə? Ona görə ki, biz öz suverenliyimizi bərpa etmişik? Burada da uğursuzluğa düçar oldular. Bizə qarşı kinləri, necə deyərlər, daha çox artdıqdan sonra isə onlar indi bizi nüfuzdan salmaq üçün bütün metodlardan istifadə edirlər.

...Hətta bizim münasibətlərimiz soyuq müharibə fazasına daxil olduqda əvvəlcə bizə mesajlar gəlirdi ki, "unutmayın, biz böyük ölkəyik"... Fransa nə vaxtsa böyük ölkə, dahi mütəfəkkirlər, böyük alimlər, yazıçılar ölkəsi olub. Amma indi belə deyil. Hazırda Makron rejimi mahiyyət etibarilə Fransanı uğursuz dövlətə çevirir. Azərbaycana zərər vermək əvəzinə, bax, bu barədə düşünmək lazımdır. Onların bizə batırmaq istədikləri dişləri artıq sınıb. Heç olmasa, qalanları qoruyub saxlasınlar.

## Azərbaycanda rus dili mədəniyyətimizə heç bir zərər vermir

Rus dilinə ictimaiyyət tərəfindən tələbat var və ona hər hansı məhdudiyyət yoxdur. Əksinə, biz hər vəchlə çalışırıq ki, insanların rus dilini daha yaxşı bilmələri, ona mükəmməl yiyələnmələri üçün əlavə şərait yaradaq. Bizdə tədris rus dilində olan 320-dən artıq məktəb var. Bütövlükdə şagirdlərimizin bir milyona yaxını rus dilində təhsil alır və ya onu ikinci dil kimi öyrənir. İki universitet – MDU və Seçenov Akademiyası fəaliyyət göstərir. Yaradıcı kollektivlər, əsasən teatrlar demək olar ki, mütəmadi, çox tez-tez gəlirlər. Ona görə də rus dilinə tələbat var. Bu, bizə nə verir? Birincisi, sırf praktiki nöqteyi-nəzərdən hər hansı dili bilmək səni zənginləşdirir. Dili yaxşı bilmək sənə həm ədəbiyyata, həm də hər hansı elmi əsərlərə tam nüfuz etmək imkanı verir. Bu, insanlarımıza təkcə rusiyalı dostları və həmkarları ilə deyil, həm də digər MDB ölkələrində olanlarla ünsiyyət qurmağa imkan verir. Yəni, bu ünsiyyət rus dili vasitəsilə aparılır. Bizdə bütün MDB ölkələri ilə, mən prezidentlərlə rus dilində danışırıq. Biz görüşlər zamanı rusca danışırıq. Yəni, rus dili bunları verir.

Əlbəttə ki, bu, Azərbaycanda rus icması üçün daha bir rahatlıq amilidir. Bu, ölkələrimiz arasında müsbət dövlətlərarası münasibətlərin amillərindən biridir. Rus dilinə bu cür münasibət Azərbaycan dilinə, bizim kimliyimizə, mədəniyyətimizə heç bir zərər vermir. Əksinə, bu, dost ab-havası yaradır. Təsadüfi deyil ki, biz təkcə bu sahədə deyil, həm də mədəniyyətlərarası əlaqələr məsələlərinin həyata keçirilməsində də fərqlənirik. Bakının mədəniyyətlərarası dialoq üzrə Ümumdünya Forumunun keçirildiyi məkana çevrilməsi də təsadüfi deyil. Zənnimcə, bizim siyasətimiz haqlı olduğunu sübut etdi. Dili siyasi motivlər üzrə sıxışdırmağa cəhd edənlər isə böyük səhvə yol verirlər.

# Romada işgüzar görüşlər

Azərbaycan-İtaliya mədəni əməkdaşlığı müzakirə olunub

Xəbər verdiyimiz kimi, dekabrın 18-də Romada Azərbaycan Mədəniyyət Elçiləri Toplantısı keçirilib. Bu məqsədlə mədəniyyət naziri Adil Kərimlinin rəhbərlik etdiyi nümayəndə heyəti İtaliya paytaxtına səfər edib. Səfər əsnasında bir sıra görüşlər keçirilib.





Mədəniyyət naziri Adil Kərimli dekabrın 18-də İtaliya paytaxtında Santa Çeçiliya Konservatoriyasının rektoru Franko Antonio Mirenzi ilə görüşüb.

Rektor XXVI əsrdə əsası qoyulan təhsil ocağı haqqında məlumat verib. Bildirib ki, müxtəlif adlar və statuslarla fəaliyyət göstərən konservatoriya 1923-cü ildən indiki adını alıb və İtaliyanın ən nüfuzlu bədii təhsil müəssisələrindəndir.

Söhbət zamanı nazir Adil Kərimli ölkəmizin musiqi mədəniyyəti barədə söz açıb, bu sahədə aparıcı təhsil ocaqlarından danışıb. Bildirib ki, Azərbaycanda tarixən Avropa klassik musiqi məktəbinə böyük maraq olub. Görkəmli opera müğənniləri Şövkət Məmmədova və Bülbül XX əsrin əvvəllərində Milan Konservatoriyasında vokal dərsləri alıb, ölkəmizin musiqi mədəniyyətinin inkişafına mühüm töhfələr veriblər. Sonralar da istedadlı gənclərimiz Avropanın, o cümlədən İtaliyanın məşhur bədii təhsil ocaqlarında oxuyublar.

Qeyd olunub ki, Bakı Musiqi Akademiyasında, eləcə də Azərbaycan Milli Konservatoriyasında yerli tələbələrlə yanaşı, əcnəbi gənclər də musiqi biliklərinə yiyələnirlər. Avropa klassik bəstəkarlarının əsərləri tədris proqramlarında əksini tapır, teatr-konsert müəssisələrinin repertuarında yer alır.

Görüşdə Azərbaycanın müvafiq ali təhsil ocaqları ilə Santa Çeçiliya Konservatoriyası arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

***

Dekabrın 19-da Romada Azərbaycanın mədəniyyət naziri Adil Kərimli ilə İtaliyanın mədəniyyət naziri Alessandro Ciuli arasında görüş keçirilib.

Görüşdə azərbaycanlı həmkarını səmimi salamlayan Alessandro Ciuli iki ölkə arasında ticarət və energetika sahələrində əlaqələrin yüksək səviyyədə inkişaf etdiyini bildirib. Qeyd edib ki, İtaliya tərəfi Azərbaycanla mədəniyyət sahəsində əməkdaşlıqda da maraqlıdır. "Biz Heydər Əliyev Fondunun İtaliyada, eləcə də Vatikanda tarixi-dini irsin bərpasına verdiyi töhfələri yüksək qiymətləndirir, buna görə Azərbaycan tərəfinə minnətdarlığımızı bildiririk", – deyə italiyalı nazir əlavə edib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Adil Kərimli Azərbaycan və İtaliya rəhbərləri arasında qarşılıqlı etimada və dostluğa əsaslanan əlaqələrin ildən-ilə möhkəmləndiyini diqqətə çatdırıb. Vurğulanıb ki, Azərbaycan dövləti də İtaliya ilə əməkdaşlığa önəm verir. 2014-cü ildə "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq haqqında" Birgə Bəyannamə imzalanıb. İki ölkə arasında mədəni əməkdaşlıq da inkişaf edir. Xüsusilə, tarixi-mədəni irsin qorunması, memarlıq və dizayn kimi sahələrdə əlaqələr məmnunluq doğurur.

Bildirilib ki, İtaliya tarixi-mədəni irsin bərpası və mühafizəsi, muzey və kitabxana işi sahələrində zəngin təcrübəyə malikdir. Azərbaycan tərəfi bu sahədə dost ölkənin təcrübəsindən faydalanmaqda maraqlıdır.

Nazir diqqətə çatdırıb ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı zamanı xalqımızın çoxəsrlik tarixi-mədəni mirası dağıdılıb, vandalizmə məruz qalıb. Azərbaycan dövləti tərəfindən azad olunmuş ərazilərdə geniş bərpa və yenidənqurma işləri həyata keçirilir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən tarixi-mədəni abidələrin təmir-bərpası xüsusilə diqqət mərkəzində saxlanılır. İtaliya da işğaldan azad edilmiş ərazilərdə bərpa prosesinə öz töhfəsini verir.

Görüşdə bədii təhsil, mədəniyyət ocaqlarının idarə edilməsi, musiqi kollektivlərinin qastrol səfərlərinin təşkili və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Kinorejissor Kamil Rüstəmbəyovun xatirəsi anılıb



Bu il Azərbaycan kino sənətinin görkəmli nümayəndəsi, tanınmış rejissor Kamil Rüstəmbəyovun (1924–1991) anadan olmasının 100 illik yubileyidir.

Dekabrın 18-də Azərbaycan Dövlət Film Fondu və Azərbaycan Kinematoqrafçılar İttifaqının təşkilatçılığı ilə Kamil Rüstəmbəyovun 100 illiyi münasibətilə xatirə gecəsi keçirilib.

Fondda keçirilən tədbir çərçivəsində sənətkarın həyat və yaradıcılığını əks etdirən fotosərgi açılıb.

Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev, Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Xalq artisti Rasim Balayev, Xalq artistləri Əbdül Mahmudov, Ramiz Həsənoğlu, Əməkdar incəsənət xadimləri Ayaz Salayev, Oqtay Babazadə, Əməkdar artist Əliqulu Səmədov çıxış edərək Kamil Rüstəmbəyov haqqında xatirələrini bölüşüb, onun kino sənətimizə töhfələrindən söz açıblar.

Tədbirdə sənətkarın həyat və yaradıcılığı ilə bağlı videoçarx və rejissorun çəkdiyi filmlərdən fraqmentlər nümayiş olunub.

Qeyd edək ki, 1960-cı ildə "Aygün" tammetrajlı bədii televiziya filmi ilə sənət uğurunu qazanan K.Rüstəmbəyov milli kino salnaməsinə dəyərli töhfələr verib. 1965-ci ildə "Azərbaycanfilm"ə işləməyə dəvət olunan rejissorun yaradıcılığına "Dağlarda döyüş", "Axırıncı aşırım", "Dərviş Parisi partladır" (rejissor Şamil Mahmudbəyovla birgə) kimi məşhur ekran əsərləri daxildir. O, həmçinin "Gözlə məni" bədii filmi, "Zəncirlənmiş adam" qısametrajlı bədii televiziya filmi, film-konsert ("Mahnı qanadlarında") və sənədli filmlərin quruluşçu rejissorudur.

# Avtomatlaşdırılmış kitabxana sistemi ilə bağlı Türkiyə təcrübəsinin tətbiqi

Mədəniyyət Nazirliyinin tabeliyindəki kitabxanalarda tətbiq edilən KOHA Avtomatlaşdırılmış Kitabxana-İdarəetmə Sistemi ilə işin təkmilləşdirilməsi məqsədilə Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kitabxanalar və Yayımlar Baş İdarəsi Texniki xidmətlər şöbəsinin müdiri Hülya Dirican, şöbənin əməkdaşları Fərhad Öztürk və İsmail Karaca Azərbaycan Milli Kitabxanasına dəvət ediliblər.



Dekabrın 18-də kitabxanada keçirilən görüşdə direktor Kərim Tahirov bildirib ki, KOHA sisteminin şəhər və rayonlarda tətbiqi iki ildir həyata keçirilir və bu, kitabxanalara əlaqəli şəkildə işləmək imkanı yaradır. Qeyd edilib ki, Türkiyədən dəvət edilən mütəxəssislərlə təcrübi xarakter daşıyacaq təlimdə məqsəd qarşıya çıxan problemlərin birgə həllidir.

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin sektor müdiri Xəyal Məmmədov KOHA sisteminin 100-dən artıq ölkədə tətbiq edildiyini deyib. O, nazirliyin tabeliyindəki kütləvi kitabxanalarda bu sistemin tətbiqi istiqamətində görülən işlərdən danışıb. Bildirilib ki, Milli Kitabxananın Treninq mərkəzində keçirilən təlimdə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan Nərimanov, Xətai, Səbail, Yasamal, Qaradağ, Binəqədi, Xəzər, Nəsimi, Suraxanı, Nizami, Sabunçu rayon mərkəzləşdirilmiş kitabxana sistemləri (MKS) və M.Ə.Sabir adına Şəhər Kütləvi Kitabxanasından əməkdaşlar iştirak ediblər.

Qeyd olunub ki, təlimlərin növbəti mərhələləri Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin (RMİ) tabeliyində olan MKS-lərin əməkdaşları üçün (19 dekabr, Gəncə Mərkəzi Kitabxanası) və Quba-Xaçmaz RMİ-nin tabeliyində olan MKS-lərin əməkdaşları üçün (20 dekabr, Quba Mərkəzi Kitabxanası) nəzərdə tutulub.

Dekabrın 21-də isə türkiyəli mütəxəssislər Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Səbail rayon MKS-nin Mərkəzi Kitabxanası, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası və F.Köçərli adına Respublika Uşaq Kitabxanasında sistemin iş vəziyyəti ilə tanış olacaq, tövsiyələrini verəcəklər.

# Musiqi alətlərimiz Belçika Kral İncəsənət və Tarix Muzeyinə hədiyyə edilib

Ölkəmizin Belçika və Lüksemburqdakı səfirliyinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyası tərəfindən milli musiqi alətlərimiz tar, kamança və qaval Brüsseldəki Kral İncəsənət və Tarix Muzeyinə hədiyyə edilib.

Bununla bağlı mərasimi giriş sözü ilə "Baroque and More" musiqi təşkilatının (Belçika) bədii direktoru Lük Pone açıb.

UNESCO üzrə Milli Komissiyanın baş katibi Seymur Fətəliyev Azərbaycan milli musiqisinə və musiqi alətlərinə göstərilən marağa görə muzey rəhbərliyinə təşəkkür edib. Diqqətə çatdırılıb ki, tar, kamança və qaval Azərbaycan muğam sənətinin ifaçılıq alətləridir. Azərbaycan muğamı, eləcə də ayrılıqda tar və kamança alətləri və onların hazırlanması sənəti UNESCO-da Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib. Ümumilikdə indiyədək Azərbaycanın qeyri-maddi mədəni irsi ilə bağlı 24 element UNESCO-nun müvafiq siyahılarına salınıb.

Qeyd olunub ki, zəngin Azərbaycan mədəniyyətində muğam sənəti xüsusi yer tutur. Tar, kamança və qavaldan ibarət muğam üçlüyü tarixə kök salmış Azərbaycanın qədim musiqi ənənələrinin bənzərsiz nümunəsidir.

Tar Azərbaycan musiqi kimliyinin simvolu, misilsiz ifadə dərinliyi təqdim edən simli musiqi alətidir. Kamança zəngin və ifadəli tembri ilə Azərbaycan ruhunun səsidir. Qaval isə muğamın ritmik elementidir, bu unikal musiqinin nəbzini ifadə edir.




Seymur Fətəliyev musiqi alətlərinin tarixi barədə də məlumat verib. Qeyd edib ki, tar aləti XVI əsrdə meydana çıxsa da, onun müasir variantı XIX əsrin ikinci yarısında məşhur musiqiçi Mirzə Sadıq Əsəd oğlu tərəfindən təkmilləşdirilib. Bildirilib ki, tarın əsas hissəsi tut ağacından düzəldilir, muzeyə hədiyyə olunan tar Bakıda simli musiqi alətləri ustası Eyvaz İbrahimov tərəfindən hazırlanıb.

Kamança Azərbaycan musiqi ənənəsində ən qədim alətlərdən biridir. Yumşaq, zərif və bir qədər həzin tonu ilə kamança musiqisevərlər tərəfindən xüsusi rəğbətlə qarşılanır. Muzeyə təqdim edilən kamança tut və qoz ağacından düzəldilmiş, təbii sədəflərlə bəzədilmiş əl işidir. Yuxarı hissəsi nərə balığının dərisindən hazırlanmış nazik qişa ilə örtülüb.

"Qaval tar və kamançanın müşayiəti ilə ənənəvi muğam üçlüyünü tamamlayır. Bu üçlükdə əsas rolu ritmik melodiyaları qeyd etmək üçün qavalı çalaraq oxuyan xanəndə oynayır. Təqdim etdiyimiz qaval Gəncə şəhərində usta Mehman Məmmədovun əl işidir. O, tut ağacından hazırlanıb. Balıq dərisi pərdəsi alətə unikal rezonans verir", – deyə S.Fətəliyev əlavə edib.

Belçikanın musiqi mütəxəssisləri muğam sənəti, eləcə də tar, kamança və qavalla bağlı fikirlərini bölüşüb, muğamın böyük bir dərya olduğunu bildiriblər.

Musiqişünas, muzeyin Qərb nəfəs və zərb alətləri kolleksiyasının kuratoru Jeri Dümulen (Gery Dumoulin) tar və kamançanın füsunkar alətlər olduğunu deyib.

Beynəlxalq Muğam Mərkəzinin direktoru Əməkdar artist, tarzən Sahib Paşazadə muğam musiqisi, tar ifaçılığı, eləcə də kamança və qaval alətləri haqqında danışıb.

Mərasimdə Sahib Paşazadə (tar), Xalq artisti Yeganə Axundova (piano) və Xəyyam Məmmədovun (kamança) müşayiəti ilə xanəndə, Əməkdar artist İlkin Əhmədov "Küçələrə su səpmişəm", "Şuşanın dağları başı dumanlı", "Sarı gəlin" xalq mahnılarını oxuyub. Həmçinin musiqiçilərmizin ifasında Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Vaqif Mustafazadə, Rauf Hacıyev, Bəhram Nəsibov, Vasif Adıgözəlov, Həsən Rzayev, Fərhad Bədəlbəylinin əsərləri səslənib.

Azərbaycan musiqisi belçikalı sənətsevərlər tərəfindən alqışlarla qarşılanıb.

# Kitabxana və muzeylərlə bağlı qanunvericiliyə yenidən baxılır

Milli Məclisin Mədəniyyət komitəsinin dekabrın 17-də keçirilən iclasında "Kitabxana işi haqqında" və "Muzeylər haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə olunub.



Komitə sədri Polad Bülbüloğlu diqqətə çatdırıb ki, mövcud qanunvericiliyə əsasən, kitabxana və muzeylər müəyyən olunmuş qaydada təsərrüfat fəaliyyəti ilə məşğul ola bilərlər və bu fəaliyyətdən əldə olunan vəsait onların sərəncamında qalır.

Sözügedən qanunlara təklif olunan dəyişikliklər dövlət kitabxanalarının və muzeylərin bu fəaliyyətindən əldə edilən vəsaitdən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydaya uyğun olaraq istifadə etməsini nəzərdə tutur.

Çıxış edən deputatlar kitabxanaların və muzeylərin müasir dövrün tələblərinə uyğunlaşdırılması, kitabxana fondunun zənginləşdirilməsi, muzeylərin turizmlə əlaqələndirilməsi, bu sahələrdə dövlət-özəl tərəfdaşlığının tətbiq edilməsi kimi kitabxana və muzey işinin inkişafının bəzi aktual məsələləri ilə bağlı fikirlərini bölüşüb, təklif olunan dəyişikliklərə rəylərini səsləndiriblər.

Vurğulanıb ki, sənəd mədəniyyət müəssisələri tərəfindən büdcədənkənar fəaliyyətdən əldə edilən gəlirlərin idarə olunması ilə əlaqədar qanunvericilikdə mövcud ziddiyyətlərin aradan qaldırılması məqsədilə hazırlanıb.

Qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# "Azərbaycan mediası: tarix və müasirlik"

## Şirməmməd Hüseynovun 100 illiyi münasibətilə konfrans

Dekabrın 17-də Bakı Dövlət Universitetində (BDU) görkəmli alim və mətbuat tədqiqatçısı, professor Şirməmməd Hüseynovun (1924–2019) 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan mediası: tarix və müasirlik" mövzusunda elmi-praktik konfrans keçirilib.



Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, professor Şirməmməd Hüseynov görkəmli mətbuat tədqiqatçısı, nüfuzlu alim, unudulmaz müəllim kimi şərəfli bir ömür yaşayıb: "Professor Şirməmməd Hüseynov böyük bir ənənənin, tarixi missiyanın, "Əkinçi" məktəbinin davamçısı idi. Bu ənənə XIX əsrin sonu, XX əsrin əvvəllərində yaranan və formalaşan, klassik mətbuat xadimlərimizin milliliyə, vətənpərvərliyə əsaslanan ənənəsi idi. Şirməmməd müəllimin elmi və publisistik yazıları klassik mətbuat xadimlərimizlə müasir dövrümüz arasında bir körpü rolunu oynayır".

Şirməmməd Hüseynovun həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş olunub.

Türkiyənin Üsküdar Universitetinin rektoru Nazife Güngör böyük alim Şirməmməd Hüseynovun xalqına xidmət edən, tarix yaradan bir jurnalist və alim olduğunu vurğulayıb.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid isə qeyd edib ki, Şirməmməd Hüseynov təkcə yazıları ilə deyil, vətəndaşlığı ilə də dərs keçib, nümunə olub.

Milli Məclisin deputatı Vüqar Rəhimzadə, "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov, BDU-nun kafedra müdirləri Cahangir Məmmədli, Qulu Məhərrəmli, Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev və digər çıxış edənlər Şirməmməd Hüseynovun böyük alim və minlərlə jurnalist yetişdirmiş pedaqoq kimi fəaliyyətindən söz açıblar.

Alimin qızı, Azərbaycan Milli Konservatoriyasının prorektoru Lalə Hüseynova çıxış edərək konfransın təşkilinə görə minnətdarlığını bildirib.

Konfrans işini bölmə iclasları ilə davam etdirib.

# Dinlərarası harmoniya: dinc birgəyaşayışın təşviqi

## ICESCO-da ölkəmizin müsbət təcrübəsindən söz açılıb

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO), Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və ölkəmizin Mərakeşdəki səfirliyinin birgə təşkilatçılığı ilə dekabrın 17-də Rabat şəhərində "Dinlərarası harmoniya: dinc birgəyaşayışın təşviqi" mövzusunda beynəlxalq konfrans keçirilib.

ICESCO-nun qərargahında təşkil olunan konfransda Azərbaycandan Milli Məclisinin sədr müavini akademik Rafael Hüseynov, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, digər rəsmilər, Mərakeş, Misir, Liviya, Tunis, İtaliya, İngiltərə və digər ölkələrdən dini mövzular üzrə mütəxəssislər iştirak ediblər.

Çıxışlarda birgəyaşayış, qarşılıqlı hörmət və dini dözümlülüyün qlobal əhəmiyyəti ilə bağlı müzakirələr aparılıb, Azərbaycanın dini müxtəliflik sahəsində uğurlu təcrübəsindən söz açılıb.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinovun moderatorluğu ilə keçən "Dini birgəyaşayışda ən yaxşı təcrübələr. Dini tolerantlıq və birgəyaşayışın Azərbaycan modelinin tədqiqi, uğurlu təşəbbüslərin və təcrübələrin işıqlandırılması" mövzusunda sessiyada millət vəkili Fazil Mustafa ölkəmizdəki mədəniyyətlərarası dialoq mühitindən söz açıb. Ermənistan tərəfindən otuz il işğalda saxlanılan Azərbaycan torpaqlarında, eləcə də indiki Ermənistanın ərazisində Azərbaycan xalqına məxsus dini və mədəni irs nümunələrini məhv etdiyini diqqətə çatdıran F.Mustafa bu prosesin əsas təbliğatçılarının erməni kilsəsinə mənsub din xadimləri olduqlarını vurğulayıb.



İtaliyanın "Global Christian-Muslim-Marian Committee" təşkilatının rəhbəri Nadir əl-Akkad bildirib ki, bəşəriyyətin qurtuluşu xalqların birgəyaşayışındadır və bu baxımdan multikulturalizm və tolerantlığın Azərbaycan modeli mühüm siyasi məna daşıyır.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının yepiskopu Aleksi (Smirnov) Azərbaycan dövlətinin din siyasətinin ən mühüm prinsiplərinin tolerantlıq, inanc və ibadətlərdəki fərqlərə hörmət bəsləmək olduğunu diqqətə çatdırıb.

Avropa Yəhudilərinin Bakı dini icmasının ravvini Şneor Seqal əsrlər boyu Azərbaycanda bir çox xalqların nümayəndələri arasında dostluq münasibətlərinin olmasından söz açıb.

Azərbaycanda Katolik Kilsəsinin Apostol Prefekturasının general vikarisi Yozef Marek xristianlığın ölkəmizdə yayılmasının tarixi və Roma Katolik Kilsəsi ilə Azərbaycan arasında tarixi münasibətlər haqqında danışıb.

Konfransın yekununda ICESCO-nun baş direktoru Salim əl-Malik, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, ölkəmizin Mərakeş Krallığındakı səfiri və ICESCO yanında daimi nümayəndəsi Nazim Səmədov çıxış ediblər.

Salim əl-Malik dinlərarası dialoqun və harmoniya prinsipinin müasir dünyada dinc birgəyaşayışın təmin edilməsi üçün əhəmiyyətini qeyd edib.

Konfrans çərçivəsində təşkil olunan "Ortaq bəşəri dəyərlər, müxtəlif dinlər" adlı sərgidə Azərbaycandakı dini müxtəliflik və tolerantlıq, eləcə də ICESCO tərəfindən 2024-cü ildə "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilmiş Şuşa ilə bağlı fotolar nümayiş etdirilib.

# "Maestroya sevgi ilə" – Vaqif Mustafazadə yad olunub

Azərbaycan Dövlət Akademik Filarmoniyasında görkəmli caz pianoçusu və bəstəkarı, ölkəmizdə caz musiqisinin banilərindən biri, Əməkdar artist Vaqif Mustafazadənin (1940–1979) anım günü (16 dekabr) münasibətilə "Maestroya sevgi ilə" adlı musiqi axşamı keçirilib.

Vaqif Mustafazadə adına Xeyriyyə Fondunun təşkil etdiyi konsertdə istedadlı cazmenlər Xalq artisti Salman Qəmbərov, Əməkdar artistlər Şahin Növrəsli, Emil Əfrasiyab, İsfar Sarabski, Moskva Dövlət Akademik Filarmoniyasının solisti Riad Məmmədov çıxış ediblər.

Vaqif Mustafazadənin "Muğam", "Xatirələr", "Əzizənin intizarında", "Bahar", "Aman ovçu" əsərləri, eləcə də John Coltranenin məşhur əsərləri səsləndirilib.

Gecədə Vaqif Mustafazadənin yaradıcılığına xas olan coşqu və lirik hisslər musiqi dili ilə bir-birini əvəz edib. Əməkdar artist Ruslan Hüseynov (kontrabas), Elvin Bəşirov və Həsən Bilalov (zərb alətləri), konsertin qonağı Rusiyadan dəvət olunan caz ifaçısı Yakov Okun dəyərli fikirləri və özünəməxsus improvizəsi ilə musiqi gecəsinə rəng qatıblar.

Lirik ruhda keçən tədbirin aparıcısı Əməkdar artist Firdovsi Atakişiyev olub.



# Asiya xalqlarının ədəbiyyatı və MDB ölkələrinin epos mədəniyyəti

## AMEA-da beynəlxalq elmi konfranslar



Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) təşkilatçılığı ilə dekabrın 16-da "Asiya xalqları ədəbiyyatı: ənənələr və müasir tendensiyalar" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açılış nitqində uzun zaman diqqətdən kənarda qalmış Asiya ölkələri ədəbiyyatı ilə bağlı Bakıda keçirilən ilk beynəlxalq elmi konfransın əhəmiyyətindən bəhs edib. Bildirib ki, AMEA-nın institutlarında Asiya ədəbiyyatı ilə bağlı şöbələr, Çin, Pakistan, eləcə də Mehmet Akif Ərsoy (türk), Əlişir Nəvai (özbək, eləcə də Məhtimqulu Fəraqi (türkmən) ədəbiyyat mərkəzləri fəaliyyətə başlayıb. AMEA ilə Çin İctimai Elmlər Akademiyası, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Pakistan Ədəbiyyat Akademiyası, eləcə də AMEA ilə Türkiyənin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu və Türkiyə Elmlər Akademiyası arasında əməkdaşlıq müqavilələri imzalanıb. Türkiyə, Qazaxıstan və Özbəkistanın universitetləri ilə əməkdaşlıq qurulub. AMEA Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Assosiasiyası və Avrasiya Universitetlər Birliyi kimi akademik qurumlar da təmsil olunur.

Asiya Elmlər Akademiyası və Cəmiyyətləri Assosiasiyasının prezidenti Əhməd Nuri Yurdusev, Pakistan Ədəbiyyat Akademiyası prezidenti Najeeba Arif, Çin Sosial Elmlər Akademiyasının Ədəbiyyat Tədqiqatları İnstitutunun direktor əvəzi Lu Yusong, Hanoy Universitetinin (Vyetnam) əməkdaşı Nguyen Van Çien, Fərqanə Dövlət Universitetinin (Özbəkistan) kafedra müdiri Mənzurə Jurayeva və başqa qonaqlar çıxış ediblər.

"Şərqi Asiya diskursu və Koreya ədəbiyyatının yeni gələcəyi", "Çin ədəbiyyatının xalq mərkəzli təbiəti: təkamül və missiya", "Asiya ədəbiyyatında doğu-batı diskursu: Koreya, yapon və əfqan romanları kontekstində" mövzularda məruzələr dinlənilib.

Konfrans işini "Türk xalqları ədəbiyyatı", "Müqayisəli ədəbiyyatşünaslıq", "Şərqi Asiya xalqlarının ədəbiyyatı", "Cənubi Asiya xalqlarının ədəbiyyatı" seksiyalarda davam etdirib.

Dekabrın 17-də isə AMEA Rəyasət Heyətində "MDB ölkələri xalqlarının epos mədəniyyəti: ənənə və çağırışlar" mövzusunda elmi konfrans keçirilib.

Akademik İsa Həbibbəyli bu konfransın keçirilməsi barədə bir neçə il öncə AMEA-da MDB dövlətlərinin alimlərinin iştirakı ilə baş tutmuş "Qayaüstü mədəniyyət: mif, rəsm və dünya" mövzusunda beynəlxalq tədbirdə razılığa gəlindiyini xatırladıb. AMEA rəhbəri bir neçə il öncə Pakistan Ədəbiyyat Akademiyası tərəfindən "Kitabi-Dədə Qorqud" dastanının urdu dilinə tərcümə olunduğunu, hazırda isə Cənubi Koreya mütəxəssisləri tərəfindən dastanın Koreya dilinə tərcüməsi istiqamətində işlərin davam etdirildiyini bildirib.

Tədbirdə AMEA-nın Folklor İnstitutunun şöbə müdiri professor Ramazan Qafarlının "Kitabi-Dədə Qorqud"da zaman, məkan və kəmiyyət vəhdəti (xronotoplar və uzunluq toposları)", Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun professoru Abuzər Bağırovun "İqor polku" dastanı haqqında söz: əfsanə və reallıqlar", Folklor İnstitutunun şöbə müdiri professor Füzuli Bayatın "Koroğlu: mifik qəhrəmandan haqq arayan epik qəhrəmana" mövzusunda məruzələri dinlənilib. Həmçinin Özbəkistan Milli Elmlər Akademiyasının Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutundan dosent Gülnaz Sattarovanın "Özbək dastançılıq ənənələri və müasir dövr", Abay Qazax Milli Pedaqoji Universitetindən Janakul Sametovanın "Qazax epos yaradıcılığı" və AMEA Ədəbiyyat İnstitutunun direktor müavini dosent Mehman Həsənlinin "Çingiz Aytmatov yaradıcılığında epos motivləri" mövzularında məruzələri təqdim olunub.

# Kürdəmirdə vətəndaşların müraciətləri dinlənilib

Mədəniyyət naziri Adil Kərimlinin növbəti vətəndaş qəbulu dekabrın 14-də Kürdəmir şəhərində gerçəkləşib.



Qəbuldan öncə nazir Adil Kərimli və Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Elxan İbrahimov şəhərin mərkəzində Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçəklər düzərək əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Qəbulda Kürdəmir, Ucar, Zərdab, Ağdaş, Yevlax, Göyçay rayonlarından və Mingəçevir şəhərindən olan vətəndaşların müraciətləri dinlənilib.

Vətəndaşlar, əsasən, işlə təmin olunma, mədəniyyət sahəsi ilə bağlı təkliflər, təşəbbüslər, əməyin qiymətləndirilməsi və digər məsələlərlə bağlı müraciətlərini diqqətə çatdırıblar.

Mədəniyyət naziri hər bir müraciət üzrə məsələlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli ilə bağlı nazirliyin məsul nümayəndələrinə tapşırıqlar verib.

Qeyd edək ki, qəbulda şəhid ailələri və qazilərin qeyd etdikləri məsələlərə diqqətlə yanaşılması, vaxtında və obyektiv baxılması məqsədilə qeydiyyata alınaraq nəzarətə götürülüb.

# “Sənətkarın dostu” – kamança ifaçısı ilə görüş

Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) “Sənətkarın dostu” layihəsi bu dəfə Ağdaş şəhərində reallaşıb.




MEMİM-in təşkilatçılığı, Mərkəzi Aran RMİ-nin dəstəyi ilə Ağdaş şəhər Habil Əliyev adına 1 nömrəli Uşaq musiqi məktəbində Əməkdar artist, Azərbaycan Milli Konservatoriyasının dosenti, kamança ifaçısı Elnur Əhmədovla görüş keçirilib.

RMİ-nin rəisi Aydın Bəşirov və MEMİM-in direktoru vəzifəsini icra edən Vüqar Hümbətov regionlarda bu kimi tədbirlərə böyük ehtiyac olduğunu diqqətə çatdırıblar.

Riad Cəbrayılovun moderatorluğu ilə keçirilən tədbirdə Elnur Əhmədov kamança aləti, onun ifaçılıq ənənələri, alətin tədrisi, təbliği ilə bağlı məlumat verib. Ustad dərsi formatında keçirilən tədbirdə sənətkarın özü ilə yanaşı, tələbələrinin də ifasında musiqi nümunələri təqdim olunub.

“Sənətkarın dostu” layihəsi mədəniyyətin təşviqi, görkəmli incəsənət xadimləri ilə gənc istedadların zəngin təcrübə mübadiləsinin təşkili məqsədilə həyata keçirilir. Layihə çərçivəsində paytaxt və regionlarda maarifləndirici, musiqili və interaktiv görüşlərin davamlı keçirilməsi nəzərdə tutulur.

# Cəlilabadda həmrəylik festivalı

Cəlilabad şəhər Heydər Əliyev seyrəngahında Lənkəran-Astara RMİ-nin iştirakı ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə “Gənclər və idmançıların həmrəylik festivalı” keçirilib.



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra festival iştirakçıları Azərbaycan Dövlət Pedaqoji Universiteti Cəlilabad filialı, Cəlilabad Dövlət Rəsm Qalereyası və Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin “Roboto texnika” dərnəyinin stendlərinə baxış keçirib, digər qurumların hazırladıqları təqdimat stendləri ilə yaxından tanış olublar.

Tədbir uşaq-gənclər idman məktəbi idmançılarının nümunəvi çıxışları ilə davam edib.

Sonda rəngarəng musiqi proqramı təqdim olunub.

# Ballıca sakinləri doğma yurda qovuşublar

İşğaldan azad olunmuş torpaqlarda məskunlaşma davam edir. Dekabrın 13-də Xocalı rayonunun Ballıca kəndinə ilk köç olub. İlk mərhələdə 27 ailə olmaqla, 152 nəfər keçmiş məcburi köçkün doğma yurduna qovuşub.



Açarların təqdim edilməsi mərasimində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak ediblər.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov mənzillərin açarlarını ailələrə təqdim edərək onlara doğma yurdlarında xoşbəxt və firavan həyat arzulayıb.

Sakinlər 32 ildən sonra öz yurdlarına qayıtmalarının sevincini yaşayıb, evlərində məskunlaşıblar.

# Yubiley, konfrans, təqdimat...

## Bölgələrdən qısa xəbərlər

Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə “Nə? Nə zaman? Harada?” adlı intellektual oyun keçirilib. Qax rayon Heydər Əliyev Mərkəzində təşkil edilən yarışda regional idarənin əhatə etdiyi altı rayon təmsil olunub. Qax komandası I, Şəki II, Qəbələ III yeri tutub. Qalib komandalar fəxri fərmanla təltif edilib.

***

Şəki-Zaqatala RMİ və Şəki şəhər 2 nömrəli Uşaq musiqi məktəbinin birgə təşkilatçılığı ilə “Vətənim Azərbaycandır” adlı tədbir keçirilib. Şəki şəhər Heydər Əliyev Mərkəzində təşkil edilən tədbirdə vətənpərvərlik mövzusunda milli musiqi nümunələri və Vətəni tərənnüm edən şeirlər səsləndirilib. Tədbirdə şəhid anaları da iştirak ediblər. Onlar deyiblər ki, övlad itkisi ağır olsa da, şəhidlik mərtəbəsinə yüksələn övladları ilə fəxr edirlər.






***





Neftçala rayon Mərkəzi Kitabxanasında mərhum həkim, rəssam Qəmbər Əlizadənin xatirəsinə həsr olunan “Mənim ömür günəşim” kitabının təqdimatı olub. Kitabxananın metodika və biblioqrafiya şöbəsinin müdiri, Azərbaycan Yazıçılar Birliyinin üzvü, “Gündoğar” qəzetinin baş redaktoru Bədirə Rza Həsənqızının kitabında gənc yaşında dünyadan köçmüş həkim və rəssam haqqında şeir, esse və məqalələr yer alıb.

***

Şabran rayon Heydər Əliyev Mərkəzində Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə elmi-praktik konfrans keçirilib. Çıxış edənlər Naxçıvanın tarixi haqqında geniş məlumat veriblər. Diqqətə çatdırılıb ki, Ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən muxtar respublika Ali Sovetinin 1990-cı il 17 noyabr tarixli sessiyasında ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) üçrəngli bayrağı Naxçıvan MR-in dövlət bayrağı kimi qəbul olunub. Sonda qısametrajlı film göstərilib.

***

Qazax-Tovuz RMİ Tovuz rayon üzrə mədəniyyət müəssisələrinin birgə təşkilatçılığı ilə Xalq şairi Nəbi Xəzrinin (1924–2007) 100 illik yubileyinə həsr olunmuş “Nəğmə dolu ömür payı” adlı tədbir keçirilib. Bildirilib ki, Nəbi Xəzri Azərbaycan ədəbiyyatında özünəməxsus rol oynamış görkəmli söz ustasıdır. Onun doğma torpağa bağlılıq aşılayan poeziyası dərin ifadə tərzi və həyata fəlsəfi münasibəti ilə səciyyələnir. Tədbirdə şairin sözlərinə bəstələnmiş mahnılar səsləndirilib, kitablarının sərgisi təşkil olunub.

***

Masallı rayon Mərkəzi Kitabxanasında görkəmli bəstəkar, Xalq artisti Şəfiqə Axundovanın (1924–2013) 100 illiyinə həsr olunan tədbir keçirilib. Çıxışlarda qeyd olunub ki, Şərqdə opera (1972-ci il, “Gəlin qayası”) yazan ilk qadın bəstəkar kimi tarixə düşən Şəfiqə Axundova musiqi mədəniyyətimizdə mühüm xidmətlər göstərib. Bəstəkarın “Sevgilim”, “Vətən məhəbbəti”, “Nə gözəldi kəndimiz” və s. populyar mahnıları, müxtəlif janrlı digər əsərləri musiqi xəzinəmizi zənginləşdirib.

***





Salyan Tarix-Diyarşünaslıq Muzeyində “İnsanlara hürriyyət, millətlərə istiqlal!” mövzusunda tədbir keçirilib. Ziyalıların, tarixçi və mədəniyyət işçilərinin iştirakı ilə keçirilən tədbir Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin (1884-1955) 140 illiyinə həsr olunub. Çıxışlarda Rəsulzadənin XX əsrin əvvəllərində Azərbaycanda müstəqillik idealının gerçəkləşdirilməsi və milli məfkurənin dirçəldilməsi yolunda göstərdiyi xidmətlərdən danışılıb, onun publisistik, ədəbi-tənqidi irsinin Azərbaycanın ictimai fikir tarixində xüsusi yer tutduğu bildirilib. Rəsulzadənin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

***

Masallı Tarix-Diyarşünaslıq Muzeyində “Bəşəriyyətin sosial bəlası olan narkomaniya və digər zərərli vərdişlər” mövzusunda tədbir təşkil edilib. Mövzuya dair, “Ağ ölümə yox deyək!” adlı tədbir isə Yardımlı rayon Heydər Əliyev Mərkəzi və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilib.

***

Qəni Vəliyev adına Lənkəran şəhər Mədəniyyət Mərkəzinin özfəaliyyət kollektivləri Fövqəladə Hallar Nazirliyi Mülki Müdafiə Qoşunlarının Lənkəran şəhərində yerləşən hərbi hissəsində nazirliyin yaradılmasının 19-cu ildönümü münasibətilə təşkil olunan bayram tədbirində iştirak edib. Kollektivlərin təqdim etdiyi musiqi nömrələri alqışlarla qarşılanıb.

**Hazırladı: N.Məmmədli**

# Türkiyənin turizm təmsilçilərinin ölkəmizə tanışlıq səfəri

Azərbaycan Turizm Bürosu Türkiyənin 6 aparıcı turizm şirkətinin nümayəndələri üçün ölkəmizə tanışlıq səfəri təşkil edib.

Dövlət Turizm Agentliyindən bildirilib ki, səfər zamanı onlara Azərbaycanın mədəni irsi, təbiəti və turizm imkanları, o cümlədən Naxçıvan Muxtar Respublikasının turizm potensialı barədə ətraflı məlumat verilib. Planlaşdırılmış marşrut çərçivəsində bir sıra turizm potensialı olan məkanlar ziyarət edilib.

Həmçinin səfər çərçivəsində qonaqlar 20-yə yaxın yerli turizm şirkəti ilə B2B formatında görüşlər keçirərək əməkdaşlıq perspektivlərini müzakirə ediblər.



Bu ilin yanvar-noyabr aylarında Türkiyədən Azərbaycana səfər edənlərin sayı 389 min 173 nəfərə çatıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 14 faiz artım deməkdir.

# Şəkidə ustad dərsləri başa çatıb

Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı ilə Şəki-Zaqatala RMİ-nin tabeliyində fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərinin kollektivləri üçün keçirilən tar və kamança ixtisasları üzrə ustad dərsləri başa çatıb.



Görkəmi bəstəkar, Xalq artisti Şəfiqə Axundovanın 100 illiyi çərçivəsində həyata keçirilən ustad dərsləri 10-14 dekabr tarixlərini əhatə edib.

Şəki şəhərindəki 4 nömrəli Uşaq musiqi məktəbində təşkil olunan dərslər Əməkdar artist, tarzən Neymət Mürsəlov və kamança ifaçısı Fariz Hüseynov tərəfindən aparılıb.

Layihənin məqsədi təhsilin səviyyəsinin yüksəldilməsi, maarifləndirmə işinin təşkili, musiqi və incəsənət məktəblərində tədris prosesinin ixtisas proqramlarının tələblərinə uyğun olaraq tənzimlənməsi, yerlərdə müəllimlərə lazımi metodiki köməkliyin göstərilməsi, müəllim və şagirdlərin peşəkar inkişafı üçün nəzəri və praktiki biliklərinin artırılmasıdır.

Dərslərdə tar ixtisası üzrə tarın tutulma qaydalarına, ifa zamanı barmaqların simlər üzərinə applikaturaya uyğun əməl etmək şərti ilə ardıcıl qoyuluşu, şagirdlərin texniki imkanlarının artırılması məqsədilə qamma və etüd məşğələlərinə mütəmadi olaraq riayət edilməsinin zəruri olduğu qeyd olunub. Eyni zamanda proqramda ifa edilən hər bir əsərin xarakterini dinləyiciyə düzgün çatdırmaq məqsədilə nüans və ştrixlərə xüsusi diqqət yetirilməsinin vacibliyi qeyd olunub.

Kamança ixtisası üzrə isə bu musiqi alətinin tutulma qaydası, mövqelərdən düzgün istifadə, qammaların və etüdlərin daha çox ştrixlərlə çalınması ilə bağlı ətraflı məlumat verilib.

Ustad dərslərinin sonunda fikir mübadiləsi aparılıb, müəllimləri maraqlandıran məsələlər müzakirə olunub, suallar cavablandırılıb.

# “Oyuncaqların qış nağılı”

Şəki Dövlət Dram Teatrında Yeni il bayramı münasibətilə hazırlanan “Oyuncaqların qış nağılı” adlı nağıl-tamaşa (müəllif: Vladimir Yansyukeviç, ruscadan tərcümə: Lalə Məmmədova) təqdim ediləcək.




Tamaşanın quruluşçu rejissoru Elvin Nuri, quruluşçu rəssamı Sahib Əhmədov, geyim üzrə rəssamı Günay Hidayətova, baletmeysteri Elvin Nuri, musiqi tərtibatçısı Zeynəb Xəlilovadır.

Rolları Əməkdar artist Rəhim Qocayev, aktyorlar Xəyal Salahov, Fərahim Fətəliyev, Rəşad Rüstəmov, Arzu Mustafayeva, Nərmin Abbasova, Elvin Mabudov, Rəsul Məmmədrəhimov, Nuranə Mirzəliyeva, Azad Məmmədov, Nazilə İmamhüseynova, Günay Novruzəliyeva, Rəşid Mirizadə, Sənubər İsrafilova, Gülxar İmamhüseynova ifa edirlər.

# “Qrinç: Şaxta babaya məktub”

Qax Dövlət Kukla Teatrı Yeni il bayramı günlərində uşaqlara “Qrinç: Şaxta babaya məktub” adlı əyləncəli tamaşa-kompozisiya təqdim edəcək. Bu barədə teatrın baş rejissoru Əməkdar artist Yusif Abdurahmanov məlumat verib.

Tamaşanın ssenari müəllifi və quruluşçu rejissoru İlmar Abdullayev, quruluşçu rəssamı Mayis Abdullayev, musiqi tərtibatçısı Nicat Fətəliyevdir. Hazırda tamaşanın məşqləri davam edir.

2024-cü ilin repertuar planına daxil edilən Vladimir Orlovun “Qızıl cücə” əsəri əsasında səhnələşdirilən eyniadlı tamaşanın məşqləri isə başa çatıb və dekabrın 20-də tamaşaya daxili baxış olacaq. Tamaşanın quruluşçu rejissoru Araz Mehrablı, rəssamı Mayis Abdullayev, musiqi tərtibatçısı Nicat Fətəliyevdir.

Arif Mirzəyev – 80

# Doğma şəhərdə yubiley konserti

Bəstəkarlıq sənətinin əsas cəhətlərindən biri özünəməxsus yaradıcılıq üslubudur. Respublikanın Əməkdar artisti, Azərbaycan və Rusiya Bəstəkarlar İttifaqlarının, həmçinin Leypsiqdəki İ.S.Bax adına Beynəlxalq Musiqi Cəmiyyətinin və Alman-Azərbaycan Forumunun üzvü Arif Mirzəyev belə sənətkarlardandır. O, Azərbaycanda orqan musiqi aləti ifaçılığının inkişafına mühüm təsir göstərən əsərlərin müəllifidir. Məhz bu xüsusiyyətinə görə Arif Mirzəyevi müasir Azərbaycan dini-memorial orqan musiqisinin və polifonik musiqinin yaradıcısı kimi dəyərləndirirlər.

Bəstəkarın əsərləri təkcə ölkəmizdə deyil, onun hüdudlarından uzaqlarda da geniş yayılaraq ifaçıların repertuarında mühüm yer tutur. Qara Qarayev məktəbinin layiqli davamçılarından olan Arif Mirzəyev Moskvada orqan musiqisi sahəsində mükəmməl təcrübə keçərək, eyni zamanda bu alətin ifaçısı kimi püxtələşərək, dəyərli əsərlər qələmə alıb.

Orqan musiqisinin banisi İ.S.Baxın yaradıcılığı Arif Mirzəyevi daim özünə cəlb edib və o, hətta dahi bəstəkarın məzarını ziyarət etməyi özünə borc bilib.





Almaniyaya gedərək bu məqsədini reallaşdıran Arif müəllim uzun illərdir ki, Baxın vətənində yaşayır. Amma Azərbaycandan uzaqda yaşaması heç də onun vətəndən uzaq olması deyil. Doğma xalqının bütün yaşantıları onun duyğularından keçərək əsərlərində əksini tapır. Bu mənada Arif Mirzəyevin "Yanvar mərsiyələri", "Xocalı uşaqlarına layla", Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr etdiyi "Dahi prezidentin ruhuna kədərli dua" və digər əsərlərin adını çəkə bilərik.

Bəstəkarın əsərləri dünyanın müxtəlif konsert salonlarında səslənərək ona daim uğur gətirib. Sənətkarın 80 illiyi münasibətilə doğma şəhərində keçirilən konsert proqramı da buna əyani misaldır.

Filarmoniyanın Kamera və Orqan Musiqisi Zalında dekabrın 13-də keçirilən yubiley gecəsini Azərbaycan Bəstəkarlar İttifaqının sədri Xalq artisti, professor Firəngiz Əlizadə açaraq Arif Mirzəyevin yaradıcılığının milli bəstəkarlıq məktəbində müəyyən bir mərhələ olduğunu vurğuladı, onun əsərlərinin özünəməxsus musiqi dilini və fərdi üslubunu qeyd etdi.

Firəngiz Əlizadə bəstəkarın mənsub olduğu ailənin musiqi ilə sıx bağlılığından danışaraq, onun böyük qardaşı unudulmaz bəstəkar, Xalq artisti Musa Mirzəyevi də xatırladı, onların hər ikisinin dahi Qara Qarayev məktəbindən bəhrələndiklərini diqqətə çatdırdı.

Yubilyara Bəstəkarlar İttifaqı adından təbrik sözləri yazılmış plakat təqdim edildi.

Yubiley gecəsinin yaddaqalan məqamları bəstəkarın əsərlərinin seçimi ilə də bağlı oldu. Sankt-Peterburqdan dəvət olunan orqan ifaçısı Yevgeniy Avramenkonun ifasında əvvəlcə Arif Mirzəyevin dahi Üzeyir Hacıbəyliyə həsr olunan 6 hissəli II barokko simfoniyası səsləndi. Bəstəkar orqan alətinin xarakterinə uyğun olaraq Üzeyir Hacıbəyli musiqisinin intonasiyalarını öz fərdi musiqi təxəyyülü ilə üzvi şəkildə qovuşduraraq gözəl bir sənət əsəri yaradıb.

Konsertdə səslənən digər əsərlər dahi N.Gəncəvi, V.A.Mosart və İ.S.Baxın xatirələrinə ithaf idi. İ.S.Baxa ithaf olunan orqan simfoniyasında ornamental muğam, xoral və polifonik variasiyaların vəhdəti ilə unikal bir sənət nümunəsi yaradılıb. 5 hissəli simfoniyada Şərq və Qərb musiqisinin orijinal çalarları Arif Mirzəyev təxəyyülündən keçərək orqan musiqi alətində xüsusi ifadə vasitələri ilə çox gözəl tərənnüm olunur.

80 illik yubileyini qeyd edən bəstəkar tamaşaçıların alqış və təbrikləri ilə sevinib, xoşhal olduğu kimi, tamaşaçılar da onun musiqisindən aldıqları zövqdən və mənəvi qidadan təsirlənərək konsertdən xoş təəssüratla ayrıldılar.

Ömrünün kamil dövrünü yaşayan hörmətli sənətkarımıza cansağlığı və yeni yaradıcılıq arzusu ilə

**Səadət Təhmirazqızı**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

## Orqan və muğam musiqisi axşamı

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası Kamera və Orqan Musiqisi Zalının səhnəsində Azərbaycan Bəstəkarlar İttifaqının 90 illiyinə həsr olunmuş "Orqan və muğam musiqisi axşamı" adlı konsert keçirilib.

Dekabrın 11-də gerçəkləşən musiqili gecədə Bakı Xoreoqrafiya Akademiyasının nəzdindəki "Bakının ulduzları" instrumental ansamblının (bədii rəhbər Lalə Hüseynli) müşayiəti ilə solistlər – Kənan Hüseynov (tar), Rəvan Əhmədov (klarnet), Nihad Mehdizadə (balaban), Məhəmməd Şərifzadə (qarmon), Emil Əhmədzadə (piano), Nihad Məmmədov (kamança), Nizami Mehdizadə (nağara) çıxış ediblər. Konsertdə həmçinin Rasimə Babayeva (orqan), Gülnar Mirqasım (orqan), Kənan Qasım-



zadə (xanəndə), Nigar Məmmədova (orqan) və Cavad Məmmədov (piano, orqan) iştirak ediblər.

Proqramda Azərbaycan bəstəkarlarının əsərləri və xalq musiqisi səslənib.

## Rəqs qrupunun hesabat konserti

Dekabrın 15-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan Mərdəkan Mədəniyyət Sarayında "Azad" rəqs qrupunun "15 il sizinlə" adlı hesabat konserti keçirilib.

Tədbirdə rəqs qrupu haqqında videoçarx nümayiş olunub.

Çıxış edənlər qrupun fəaliyyətini yüksək qiymətləndirərək kollektivə yeni yaradıcılıq uğurları arzulayıblar.

"Azad" rəqs qrupunun ifasında "Cəngi", "Naxçıvan", "İspan", "Azadlıq", "Şərq", "Alma", "Azərbaycan süitası", "Zəfər yolu", "Üzüm", "İncilər", "Odlar yurdu" rəqsləri nümayiş olunub. Həmçinin gənc müğənnilərin çıxışı tədbirə xüsusi rəng qatıb.

Sonda qrupun rəhbəri və üzvləri Mərdəkan Mədəniyyət Sarayı tərəfindən diplomla təltif olunublar.

## "Ledi Maqbet" – Milli Dram Teatrında Bəsti Cəfərovanın yubiley benefisi



Dekabrın 15-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında "Ledi Maqbet" tamaşasının premyerası olub.

Vilyam Şekspirin "Maqbet" faciəsi əsasında hazırlanan səhnə əsəri Xalq artisti Bəsti Cəfərovanın yubileyi münasibətilə benefis tamaşadır.

Nümayişdən əvvəl Akademik Milli Dram Teatrının bədii rəhbəri, Dövlət mükafatı laureatı Mehriban Ələkbərzadə, Xalq artisti Nurəddin Mehdixanlı və sənətşünaslıq doktoru, Əməkdar incəsənət xadimi Məryəm Əlizadə çıxış edərək Bəsti Cəfərovanın yaradıcılığı, səhnə fəaliyyəti və sənət yolu haqqında danışıblar.

Sonra tamaşa nümayiş olunub. Səhnə əsərinin quruluşçu rejissoru Əməkdar artist Nicat Kazımov, quruluşçu rəssamı Samirə Həsənova, bəstəkarı Azər Hacıəsgərli, rəqslərin quruluşçusu Lalə Hacıyeva, rejissor assistenti Ceyran Başarandır.

Tamaşada Xalq artistləri Bəsti Cəfərova, Sabir Məmmədov, Əməkdar artistlər Elşən Rüstəmov, Məsmə Aslanqızı, Aslan Şirin, Elşən Cəbrayılov, Elnar Qarayev, aktyorlar İlahə Həsənova, Elnur Qədirov, İlyas Əhmədov, Vüsal Mustafayev, Rüstəm Rüstəmov, Cavidan Novruz, Elçin Nurəliyev, Nəzrin Abdullayeva, Məhsəti Tahirzadə, Aylin Həşimli, Rüzgar Qasımzadə və Dilarə Məhərrəmli iştirak edirlər.

Rejissor yozumunda tamaşanın aparıcı obrazı olaraq diqqəti Ledi Maqbetin üzərində cəmləşdirib. Ledi Maqbet əsərdəki baş qəhrəmanı – Maqbetin səviyyəsinə qaldırılıb, əsas vurğu və diqqət xeyir-şər, sehr-cadu motivi ilə yanaşı, qadın məkrinə yönəlib. Tamaşa qisas arzusunun, şöhrətpərəstliyin və təşkilatçılığın ifrat dərəcəsini göstərir.

Maqbetin Dunkanı öldürməsi geriyə dönüşü olmayan nöqtədir. Şər hər zaman şər doğur və bu, getdikcə hər tərəfi öz caynağına alır. Maqbet və Ledi Maqbet cinayətlərini gizlətmək üçün qan tökməyə davam etməyə məcburdurlar. Nəhayət, Maqbetin kral olmaq həvəsi onun məhvinə gətirib çıxarır...

## "Yeni adlar"da piano axşamı

Dekabrın 17-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində Mədəniyyət Nazirliyinin "Yeni adlar" layihəsi çərçivəsində konsert keçirilib.



Konsertdə bədii rəhbər və baş dirijor, Əməkdar artist Fuad İbrahimovun rəhbərliyi, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə solistlər – respublika və beynəlxalq müsabiqələr laureatları Əli Vəliyev (piano) və Nərgiz Kəngərli (piano) çıxış ediblər.

Proqramda F.Şopenin "Piano və orkestr üçün 1 saylı konsert" (e-moll op.11) və S.Raxmaninovun "Piano və orkestr üçün 3 saylı konsert"i (d-moll op.30) səsləndirilib.

Məlumat üçün bildirək ki, "Yeni adlar" müasir Azərbaycan ifaçılıq sənətinin inkişafına, bu sahədə yeni istedadlı nəslin tanınmasına, parlaq ifaçıların yetişməsinə xidmət edən layihədir.

## "Mərmər soyuğu" Mərakeşdə isti qarşılanıb

### Filmə iki mükafat verilib

Mərakeşin Zaqora şəhərində keçirilən 9–13 dekabr tarixlərində keçirilən 18-ci Beynəlxalq Transsəhra Film Festivalında (The Trans-Saharan International Film Festival of Zagora) ölkəmiz də təmsil olunub.




Festivalın bağlanış mərasimində müvafiq kateqoriyalar üzrə qaliblər elan edilib.

Tammetrajlı filmlər arasında qazaxıstanlı rejissor Dinyar Salamatın "Talaq" filmi qalib olub. Azərbaycan rejissoru Asif Rüstəmovun "Mərmər soyuğu" filmi eyni kateqoriyada xüsusi mükafata layiq görülüb. Bundan başqa, Qurban İsmayılov bu filmdəki roluna görə "Ən yaxşı aktyor" nominasiyasında mükafat alıb.

"Mərmər soyuğu" uğursuz rəssam və sevgilisinin qarışıq münasibətlərindən bəhs edir. Uzunmüddətli həbs həyatından sonra evə qayıdan ata ən radikal yollarla oğlunun həyatına müdaxilə etməyə çalışır.

Əsas rolları aktyorlar Qurban İsmayılov, Elşən Əsgərov, Natəvan Abbaslı ifa edirlər.

## Aşıq Mikayıl Azaflının 100 illik yubileyi qeyd olunub

Bu il XX əsr Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Mikayıl Azaflının (1924–1990) 100 illiyi qeyd olunur.

Dekabrın 16-da "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin təşkilatçılığı ilə Rəşid Behbudov adına Mahnı Teatrında saz-söz ustadının yubileyinə həsr olunan konsert keçirilib.

"Dədə Ələsgər Ocağı" İB-nin sədri Aşıq Ələsgərin nəticəsi Xətai Ələsgərli açılış nitqində Mikayıl Azaflının Azərbaycan saz-söz sənətində yerindən danışıb.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun professoru, Əməkdar elm xadimi Qəzənfər Paşayev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru filologiya elmləri doktoru, professor Mahirə Hüseynova, Milli Məclisin deputatları Məlahət İbrahimqızı, Arzu Nağıyev və Aydın Hüseynov çıxış edərək Mikayıl Azaflının zəngin irsi və aşıq sənətinə verdiyi töhfələrdən söz açıblar.




Mikayıl Azaflının qızı aşıq Gülarə Azaflı Azərbaycanın aşıq sənətinin inkişafında xidmətlərinə görə ictimai birliyin "Aşıq Ələsgər – 200" medalı və fəxri diplomu ilə təltif edilib.

Gülarə Azaflı atasının yaradıcılığına və özünün fəaliyyətinə göstərilən diqqətə görə təşəkkürünü bildirib.

Sonra konsert proqramı təqdim olunub. Ustad aşığın nəvələri, saz ifaçıları Roman Azaflı, Məhsəti Azaflı, Məzahir Azaflı, nəticəsi Mikayıl Azaflı, eyni zamanda aşıqlar – Əməkdar mədəniyyət işçiləri Ədalət Dəlidağlı, Bəhmən Kazımov, filologiya üzrə fəlsəfə doktoru, dosent Nemət Qasımlı, "İrəvan" xalq çalğı alətləri ansamblının bədii rəhbəri, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru Maya Qafarova, Ramin Qarayev və başqaları Mikayıl Azaflı yaradıcılığına müraciət edərək öz ifaları ilə tamaşaçıların könlünü oxşayıblar.

Yubiley konserti alqışlarla qarşılanıb.

## Vurğun ocağında "Anamın örtdüyü sarı kəlağayı"

Səməd Vurğunun Ev-Muzeyində "Anamın örtdüyü sarı kəlağayı" adlı tədbir keçirilib.

"Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin "Sazlı, sözlü kəlağayı günləri" layihəsi çərçivəsində təşkil etdiyi (13 dekabr) tədbir Azərbaycan kəlağayı sənətinin UNESCO-da Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına salınmasının (26 noyabr 2014-cü il) 10 illiyinə həsr olunub.

İctimai birliyin üzvü, şairə Mətanət Ulu Şirvanlı layihə çərçivəsində keçirilən tədbirlərdən, milli-mənəvi dəyərlərin təbliğindən danışıb.



Layihə iştirakçıları kəlağayı, onun hazırlanma prosesi və növləri haqqında məlumat verərək, qonaqları bu bədii nümunələrdən ibarət kiçik sərgi ilə tanış ediblər. İctimai birliyin çap etdirdiyi kitablardan şeirlər qiraət edilib.

Aşıq Nərmin Cəlalın ifasında Səməd Vurğunun "Azərbaycan", Rəşid Poladın "Gəl" şeirləri, eləcə də "Paşaköçdü", "İncəgülü" havaları səsləndirilib.

## Cırtdan və yeni dostu Nino – Gənc Tamaşaçılar Teatrında premyera

14-15 dekabr tarixlərində Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrında "CırtdaNino" adlı yeni tamaşanın premyerası keçirilib.



Yazıçı Pərvin Nurəliyevanın "Cırtdan" Azərbaycan xalq nağılının motivləri əsasında qələmə aldığı pyesə Elşad Rəhimzadə quruluş verib. Səhnə əsərinin quruluşçu rəssamı Nisə Həsənova, bəstəkarı Əməkdar incəsənət xadimi Cahangir Zülfüqarov, rejissor assistenti Sona Məhərrəmovadır. Tamaşanın plastik həlli Ceyhun Dadaşova aiddir.

Birhissəli səhnə əsərində Əməkdar artistlər Şəfəq Əliyeva, Mehriban Abdullayeva, Nəsibə Eldarova, Elnur Bəhrəmxan, aktyorlar Anar Seyfullayev, Asya Atakişiyeva, Kərəm Hadızadə, Hökümə Rəhimzadə, Aydın Dəmirov, Elgün Yəhyayev, Zümrüd Quliyeva, Mirzə ağa Mirzəyev, Aydan Həsənzadə, Ramil Məmmədov, İlhan Sadıqov, Anar Səfiyev, Aybəniz Heydərova, Hüseyn Bayramov, Xaliq Bəkirov, Mətləb Abuşov, Ümman Budaqov, İmdad Tofiqoğlu iştirak edirlər.

Nağılda balaca tamaşaçılar Cırtdan və nağılın digər qəhrəmanlarından başqa yad planetlərdən gəlmiş Nino adlı robotla da tanış olurlar. Nino Cırtdanı və onun dostlarını Yer planetindən başqa planetlərə səyahətə apararaq alimlərin, oyuncaqlar və sülhün var olduğu fərqli dünyalarla tanış edirlər.

Macəralarla dolu səhnə əsəri uşaqları yoldaşlığa, dostluğa və əmin-amanlığa səsləyən mesajlarla zəngindir. Tamaşa balaca teatrsevərlər tərəfindən maraqla qarşılanıb.



# “Tablolarda nağıllar”

## Səttar Bəhlulzadənin 115 illiyinə həsr olunmuş müsabiqəyə yekun vurulub

Xalq rəssamı Səttar Bəhlulzadənin (1909–1974) 115 illik yubileyinə həsr olunmuş “Tablolarda nağıllar” adlı gənc rəssamların yaradıcılıq sərgi-müsabiqəsinə yekun vurulub. Dekabrın 13-də Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda qaliblərin mükafatlandırma mərasimi olub.

Sərgi-müsabiqə Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin təşkilatçılığı, Azərbaycan Dövlət Rəsm Qalereyası və Azərbaycan Rəssamlar İttifaqının dəstəyi ilə keçirilib.

Mərasimdə çıxış edən mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanov görkəmli rəssamın irsinin gənc rəssamlar üçün böyük məktəb olduğunu deyib: “Səttar Bəhlulzadə həmişə gəncləri öyrədib. O öz təcrübəsini gənclərlə səxavətlə bölüşürdü. Mən şadam ki, sərgidə əsərləri nümayiş olunan gənc rəssamlar öz yaradıcılıqlarında məhz Səttar Bəhlulzadə irsini örnək seçiblər. Mən onun sənət əsərlərində olan enerji və əhvali-ruhiyyəni sizin də işlərinizdə görməyi çox istərdim”.

ARİ-nin katibi Xalq rəssamı Ağaəli İbrahimov və sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev çıxış edərək Səttar Bəhlulzadənin milli təsviri sənət tarixində rolundan danışıblar.

Azərbaycan Dövlət Rəsm Qalereyasının direktor müavini Gülşən Qəribli və MEMİM-in direktoru vəzifəsini icra edən Vüqar Hümbətov müsabiqənin əhəmiyyətindən bəhs ediblər.



Qeyd olunub ki, gənc rəssamlar öz yaradıcılıqlarını, ideya və bacarıqlarını nümayiş etdirmək üçün müsabiqədə iştirak ediblər. Bu onlar üçün əsl yaradıcı mühitdir. Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi, eləcə də Azərbaycan Dövlət Rəsm Qalereyası gənc rəssamlara daim dəstək olur.

“Tablolarda nağıllar” sərgi-müsabiqəsində 30-dan çox gənc rəssamın “Kitabi-Dədə Qorqud”, “Koroğlu” dastanları, “Məlikməmməd”, “Göyçək Fatma”, “Tıq-tıq” xanım”, “Cırtdan” və digər xalq nağılları əsasında yaradılmış, eləcə də müxtəlif mifoloji obrazları əks etdirən ümumilikdə 40-dan çox əsəri nümayiş olunub. Tablolarda klassik ədəbiyyatdan mövzulara da müraciət edilib.

Təqdim olunan əl işlərini ARİ-nin sədri Xalq rəssamı Fərhad Xəlilov, Xalq rəssamı Ağaəli İbrahimov, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev və sənətşünaslıq üzrə fəlsəfə doktoru Sevil Kərimova qiymətləndiriblər.

Münsiflər heyətinin qərarı ilə Nərmin Abdullayeva birinci, Röya Həsənova ikinci, Elçin Hüseyn isə üçüncü yeri tutub.

Qaliblərə pul mükafatları və diplomlar təqdim olunub. Əsərləri qiymətləndirilən daha bir neçə iştirakçı fəxri fərman, qalan iştirakçılar isə sertifikatlarla təltif olunublar.

Sərgi-müsabiqənin kuratoru ARİ-nin üzvü sənətşünas Dürdanə Qurbanova olub.

Əminə Dilbazi – 105

# Əfsanəvi rəqqasə

Azərbaycan milli rəqslərinin inkişafı, təbliği və gənc nəslə ötürülməsində böyük xidmətləri olan görkəmli sənətkar. Professional milli rəqs tariximizdə dərin iz qoyan sənət ulduzlarımızdan biri. Dekabrın 26-da onun anadan olmasının 105-ci ildönümü tamam olur. Tanınmış rəqqasə, xoreoqraf, Xalq artisti Əminə Dilbazi. O, yüksək səhnə mədəniyyəti, bənzərsiz ifaçılıq imkanları ilə xalq rəqsləri nümunələrinə yeni çalarlar bəxş edib.

Əminə Paşa qızı Dilbazi 1919-cu ildə Qazax rayonunda dünyaya göz açıb. Erkən çağlardan idmanın yüngül atletika sahəsinə maraq göstərib. Müxtəlif idman yarışlarına qatılaraq mükafatlar qazanıb. Yüksək fiziki hazırlığı onu rəqs aləminə gətirir. O, 1935-ci ildə rəqqas Əşrəf Səfərovun təşəbbüsü və rəhbərliyi ilə Azərbaycan Xalq Rəqs Ansamblının yaradılması məqsədilə keçirilən müsabiqədə iştirak edir. Münsiflər heyətinin müsbət rəyini qazanır. Əşrəf Səfərovun dəvəti ilə həmin kollektivdə əmək fəaliyyətinə başlayır.

Böyük sənətdə ilk addımını Əli Bayramov adına klubda atır. Sonrakı yaradıcılıq yolu Səid Rüstəmovun Xalq çalğı alətləri ansamblı ilə bağlı olur. Rəqqasə olacağını təsəvvürünə gətirməyən Əminə Dilbazi addım-addım sənətin sirlərinə yiyələnir. Milli rəqslərin ecazkar ifaçısı kimi tanınır.

O, dahi bəstəkar Üzeyir Hacıbəylinin “Kolxoz çölləri” mahnısına xoreoqrafik quruluş verir. Onun bu təşəbbüsü Üzeyir bəy tərəfindən rəğbətlə qarşılanır. O daha sonra “Ay gözəl”, “Dağlar gözəli” rəqslərinin quruluş müəllifi olur və özü də solo ifa edir. 1936–1969-cu illərdə Azərbaycan Dövlət Filarmoniyasında Mahnı və Rəqs Ansamblının solisti kimi çalışır. Sonrakı illərdə rəqs qrupuna rəhbərlik edir. 1939-cu ildən eyni zamanda baletmeyster assistenti kimi çıxış edir. Neçə-neçə rəqslər onun təfsirində yeni həyat qazanır. “İnnabi”, “Tərəkəmə”, “Vağzalı-Mirzeyi”, “Naz eləmə”, “Turacı”, “Ceyran bala”, “Uzundərə” kimi xalq rəqsləri xüsusi təravət və zövqlə təqdim olunur, böyük maraqla qarşılanır.

Əməkdar incəsənət xadimi, professor Timuçin Əfəndiyev araşdırmasında yazır: “O, ifa etdiyi bu rəqslərə yeni çalarlar qataraq yeni üslub tərzi ilə zənginləşdirib. “Vağzalı” rəqsinin ifası zamanı hər iki əlində, ovcunun içində cüt stəkan tutaraq zərif hərəkətlərlə süzməsi çox orijinal təsir bağışlayır. Yaxud Qılman Salahovun lirik melodiyası üzərində ifa etdiyi “Qavalla rəqs” də onun yaradıcılıq fantaziyasının məhsulu olub”.

Əminə Dilbazi ifa etdiyi rəqslərdə Azərbaycan qadınının mənəvi gözəlliyi, bədii-estetik duyumu və lirik hisslərini parlaq əks etdirir. Xüsusilə, qadın rəqsləri üçün xarakterik olan “çiləmə” və “süzmə” kimi əl hərəkətlərdən məharətlə istifadə edir. Bununla da rəqsə özünəməxsus bir gözəllik gətirir. Mədəniyyətimizin himayədarı, Ümummilli lider Heydər Əliyev sənətkarla görüşündə demişdir: “Əminə Dilbazinin təkrarolunmaz əlləri var, onlar sanki oxuyurlar. Belə əlləri mən heç bir, hətta ən görkəmli rəqqasədə də görməmişəm”.

Görkəmli sənətkar xoreoqraf kimi də tanınıb. Bir çox musiqili komediya, opera əsəri, müxtəlif teatr tamaşası və filmdə, xüsusilə, Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” operasında, “Arşın mal alan” və “O olmasın, bu olsun” musiqili komediyalarında milli rəqslərimizə uğurlu quruluş verib. Azərbaycan Dövlət Filarmoniyasında oynanılan “Dədə Qorqud”, “Azərbaycan toyu”, “Bir bağçanın gülləri” səhnə əsərlərində əsas partiyaları ifa edib. O, eyni zamanda respublikamızın hüdudlarından kənarda müxtəlif xalqların rəqslərinə verdiyi quruluşlar mütəxəssislər tərəfindən yüksək qiymətləndirilib.

Əminə Dilbazi Bakı Xoreoqrafiya Məktəbində və Azərbaycan Milli Konservatoriyası nəzdindəki İncəsənət Gimnaziyasında pedaqoji fəaliyyət göstərərkən zəngin sənət təcrübəsini milli xoreoqrafiyanın təşəkkülünə sərf edir.

Sənətkar 1959-cu ildə Azərbaycan Tibb İnstitutunda (indiki ATU) “Çinar” tələbə-rəqs kollektivinə, 1967-ci ildə “Sevinc” qızlar qrupuna, daha sonralar “Yallı”, “Şərur” və digər rəqs ansambllarına rəhbərlik edib.

Xalq rəqslərinin incəliklərini gənc nəslə öyrətmək üçün qüvvə və bacarığını əsirgəmir. Varislik və novatorluğu öz yaradıcılığında ahəngdar şəkildə birləşdirərək milli rəqs məktəbinin püxtələşməsi prosesinə sanballı töhfələr verir.

Əminə Dilbazinin Azərbaycan incəsənətinin inkişafı naminə göstərdiyi xidmətlər dövlət tərəfindən yüksək qiymətləndirilir. O, 1954-cü ildə “Əməkdar artist”, 1959-cu ildə isə “Xalq artisti” fəxri adlarına layiq görülür. Həmçinin müstəqil Azərbaycanın “İstiqlal” ordeni ilə təltif edilir.



Əminə Dilbazi milli rəqslərimizi dünyanın 20-dən artıq ölkəsində – Türkiyə, Almaniya, Fransa, Çin, Hindistan, İsrail, Malayziya, Pakistan, Çexoslovakiya, İsveçrədə və s. təbliğ edərək dünya şöhrəti qazanıb. 1958-ci ilin noyabrında Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı Çin Xalq Respublikasında qastrolda olur. Lençjou şəhərində keçirilən konsertlər tamaşaçılar tərəfindən maraqla qarşılanır. Əminə Dilbazi və Böyükağa Məmmədov konsertlərdə “Gəl mənə naz eləmə” rəqsini oynayırlar... Böyük uğurla keçən qastrola ÇXR-in ən böyük qəzeti “Jenmin Jibao”da səhifəsində geniş yer ayırır. Rəğbət dolu yazılar sovet mətbuatında da işıqlandırılır. Qastrol başa çatır. Qonaqlar vətənə yola düşərkən tanınmış rəqqasə Ye Min-Qo azərbaycanlı qonaqlara xitabən “Sizdən çox şey öyrəndik. Xüsusilə, Əminə Dilbazinin ifa etdiyi rəqslər bizim Çin rəqqasələrinin proqramına daxil olacaqdır. O öz müvəffəqiyyətinin sirrini bizə çox böyük həvəslə açdı...” deyir.

Milli xoreoqrafiya məktəbinin parlaq ulduzlarından olan Əminə Dilbazi 30 aprel 2010-cu ildə, 91 yaşında dünyasını dəyişib, I Fəxri xiyabanda dəfn edilib.

**Savalan Fərəcov**

# Naxçıvan səhnəsində “Ölülər”in diriliş təcəssümü

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı bu il yeni mövsümünü (29 sentyabr) “Ölülər” tragikomediyasının tamaşası ilə açdı. Böyük Mirzə Cəlilin şah əsərinin yeni səhnə təcəssümünü izləmək üçün gələnlər, sözün əsl mənasında, qələbəlik yaratmışdı.

Səhnələrə ayaq açandan – 110 ilə yaxındır teatrların repertuarında yer alan, maraqla izlənilən, tamaşaçıları düşündürən “Ölülər” bu dəfə də teatrsevərlər tərəfindən maraqla qarşılandı. Bunun bir çox səbəbləri var. Ən əsası, əsərin böyük ideya-məzmun dəyəri, müəllifin diqqət mərkəzinə gətirdiyi problemlərin, təəssüf ki, hələ də aktual olmasıdır. Obrazlı desək, görkəmli yazıçının güldürə-güldürə ağladıb anlatdığı həyat gerçəklikləri insanları mənəvi cəhətdən silkələyir, həm özü, həm də cəmiyyəti düşünməyə vadar edir.

Mirzə Cəlilin 1909-cu ildə qələmə aldığı “Ölülər” pyesinin ölkəmizdə ilk dəfə tamaşaya qoyulduğu teatrlar sırasında Naxçıvan teatrı da var. Yəni bu ölməz əsər Naxçıvan tamaşaçılarına yaxşı tanışdır. Xalqımızın Ümummilli lideri, mədəniyyətimizin böyük himayədarı Heydər Əliyev “Ölülər” tamaşasına ilk dəfə 13 yaşında Naxçıvan səhnəsində baxdığını, onun yaddaşında dərin iz buraxdığını, təsirindən çıxa bilmədiyini deyib. Ulu öndər bu pyesi fəlsəfi əsər kimi səciyyələndirib: “...Həddindən artıq bir fəlsəfi əsərdir. İnsan fəlsəfəsinin ən yüksək zirvəsində olan bir əsərdir”.

“Ölülər” Naxçıvan teatrının səhnəsində sonrakı dövrlərdə dəfələrlə ayrı-ayrı rejissorların yozumunda tamaşaçılara təqdim olunub və repertuarda yer tutub. Belə olan halda, teatrın yaradıcı kollektivinin əsərə yenidən müraciət etməsinin özü də böyük cəsarət və məsuliyyət tələb edir, eyni zamanda rejissorun və kollektivin özünə olan inamından xəbər verir. Məmnunluqla qeyd edək ki, yaradıcı kollektivin zəhməti hədər getməyib, rejissorun məxsusi yanaşması, müəllif qayəsi və aktyor oyununun harmoniya yaradaraq maraqlı bir səhnə əsərini ortaya çıxarıb.



Tamaşanın quruluşçu rejissoru, teatrın baş rejissoru Mir Qabil Əkbərovdur. Rejissoru və baş rol (Şeyx Nəsrullah) ifaçısı isə Əməkdar artist Səməd Canbaxşiyevdir.

Tamaşada əsərin qələmə alındığı dövrdə cəmiyyət həyatında hökm sürən dini fanatizm, mənəvi əsarət və cəhalətin ağır fəsadları dolğun şəkildə diqqətə çatdırılır. Səməd Canbaxşiyevin Şeyx Nəsrullahı, Xalq artistləri Rza Xudiyevin Hacı Həsəni və Yasəmən Ramazanovanın Kərbəlayı Fatması müəllif qayəsinin ustalıqla, məharətlə təqdimatı ilə yadda qaldı. Tamaşaçılar qəhrəmanların düşdüyü vəziyyətlərə həm güldülər, həm də təsirləndilər.

Səhnə əsərində digər aktyorlar da istedad və zəhmətləri ilə obrazlarının öhdəsindən yüksək səviyyədə gəldilər. Məmməd Mehdiyevin Kefli İsgəndəri xüsusi maraq doğurdu. Gənc aktyor dini cəhalətin hökm sürdüyü qaranlıq mühitdə işıqtək parlayan, cəmiyyətin ifrat naqisliklərinə dözə bilməyən, “İsfahan lotusu” adlandırdığı Şeyx Nəsrullahın qeyri-insani əməllərini ifşa edən Kefli İsgəndəri tamaşaçıya bir daha sevdirdi. Qəhrəmanın avam insanları zülmətdən aydınlığa səsləyən, maarif və mədəniyyətin yeganə xilas yolu olduğunu məharətlə diqqətə çatdıran aktyor istedad və sənət şövqü ilə ona göstərilən etimadı layiqincə doğrulda bildi.



İstənilən səhnə əsərinin müvəffəqiyyət qazanmasında düzgün rol bölgüsü müstəsna əhəmiyyətə malikdir. Bu mənada, “Ölülər” tamaşasında da uğurlu aktyor ansamblının formalaşdırılması öz bəhrəsini verdi. Eyni zamanda rejissorun aktyor heyəti ilə səmərəli çalışmasının nəticəsi idi ki, tamaşanın dinamizmi sonacan davam etdi. Yəni tamaşaçının diqqəti səhnədə baş verənlərdən yayınmadı...

Təbii ki, tamaşanın təsirli alınmasında uğurlu rəssam işi (Əməkdar rəssam Səyyad Bayramov), maraqlı musiqi tərtibatı (Azər Cəfərov) da önəmli rol oynamışdı.

Tamaşaçıların marağı və sürəkli alqışı yaradıcı kollektivin məqsədinə çatmasından, “Ölülər”in Naxçıvan səhnəsində diriliş təcəssümündən xəbər verirdi. İnanırıq ki, yeni mizan və quruluşda təqdim olunan tamaşa böyük ədibin adını daşıyan teatrın repertuarında hələ uzun müddət qalacaq.

Naxçıvan teatrının kollektivinə yeni yaradıcılıq uğurları diləyi ilə

**Adilə Səfərova**
**Əməkdar mədəniyyət işçisi**

Pressfakt

# İllər öncə qəzetlər nədən yazırdı?

## Milli Kitabxananın dövri mətbuat arxivindən (31)

İllər öncə, çap mediasının informasiya vasitəsi kimi aparıcı rol oynadığı, Lenin yoldaşın dediyi kimi, qəzetlərin kollektiv təbliğatçı, təşviqatçı, hətta kollektiv təşkilatçı olduğu dövrdə, qəzet redaksiyaları müxtəlif mövzularda dəyirmi masalar (o vaxtlar “dəyirmi stol” deyirdilər), ictimai müzakirələr təşkil edirdi. “Mədəniyyət” (eləcə də “Ədəbiyyat”) qəzetinin sələfi sayıla biləcək “Ədəbiyyat və incəsənət” qəzetində (Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar İttifaqının birgə mətbu orqanı) də belə müzakirələr keçirilirdi.

Mətbuat xronikasında bu dəfə 41 il əvvələ qayıdırıq. “Ədəbiyyat və incəsənət” qəzetindən seçmələr. Dövrün orfoqrafiyası saxlanılıb...

### Müasirlik və tarixilik: son dövr tarixi nəsrimiz haqqında

Bu günlərdə “Ədəbiyyat və incəsənət” qəzeti Nizami adına Ədəbiyyat İnstitutu ilə birlikdə son illərdə yaranmış tarixi nəsr əsərlərinin “dəyirmi stol” ətrafında müzakirəsini keçirmişdir.

Müzakirəni respublika Yazıçılar İttifaqı tənqid və ədəbiyyatşünaslıq bölməsinin rəhbəri, filologiya elmləri doktoru Yaşar Qarayev giriş sözü ilə açmışdır. Filologiya elmləri namizədi Akif Hüseynov müzakirə olunan mövzu ilə əlaqədar məruzə etmişdir.

Sonra filologiya elmləri doktoru, professor Qulu Xəlilov, respublika EA-nın müxbir üzvü Mahmud İsmayılov, filologiya elmləri namizədləri Vilayət Quliyev, Rəhim Əliyev, Vəli Osmanlı, Şamil Salmanov, Şirindil Alışanov və Nazif Qəhrəmanov çıxış etmişlər. Ədəbiyyat institutunun direktoru, respublika EA-nın müxbir üzvü Əziz Mirəhmədov söhbətə yekun vurmuşdur.

### “Əİ”nin gündəliyi

Oktyabr (Bakının indiki Yasamal rayonu – red.) Rayon Partiya Komitəsində partiya-təsərrüfat fəalları və partiya veteranlarının “Azərbaycanfilm” studiyasının “İlıq dənizdə buz parçası” (ssenari müəllifi Pavel Fin, quruluşçu rejissor Yuli Qusman, quruluşçu operator Valeri Kərimovdur) televiziya filminin yaradıcı heyəti ilə görüşü olmuşdur. Görüşü giriş sözü ilə Oktyabr Rayon Partiya Komitəsinin birinci katibi Səyavuş Əliyev açaraq partiya veteranlarının keçdiyi şanlı həyat yolundan danışdı, ədəbiyyat və incəsənət işçilərinə bu mətin insanların həyat və yaradıcılığını əks etdirən yeni-yeni əsərlər yaratmağı arzuladı.

Kinostudiyanın direktoru Cəmil Əlibəyov onun “Qış macəraları” povesti əsasında yaradılmış bu filmdə qocaman kommunist obrazını canlandırdıqları üçün filmin yaradıcılarına minnətdarlığını bildirdi.

Baş rolun ifaçısı Həsən Turabov əməksevər, prinsipial, mətin qocaman kommunist, partiya veteranı usta Nəzər obrazına necə məhəbbətlə yanaşdığını və bu rolun onun üçün müqəddəs olduğunu dedi.

Əsas rollardan birinin ifaçısı Həsən Məmmədov da film üzərindəki işindən danışdı.

Film ekranda canlandırıldıqdan sonra müzakirələr başlandı. 1920-ci ildən Sov.İKP üzvləri – respublika İnqilabi Şöhrət Şurasının sədri Bahadur Rzayev, tarix elmləri doktoru, Azərbaycan Dövlət Universitetinin professoru Yusif Yusifov, qocaman kommunist, tədqiqatçı Qulam Məmmədli, teatrşünas İlham Rəhimli, 1 nömrəli tikiş fabrikinin işçisi Səyyarə Cəfərova öz təəssüratlarını söylədilər.

Axırda S.Əliyev partiya veteranları adından yaradıcı heyətə təşəkkürünü bildirdi.

***




D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda (indiki Dövlət İqtisad Universiteti – red.) aşıqlar gecəsi keçirilmişdir. Gecədə institutun dosenti V.Məmmədov aşıq sənətinin ədəbiyyatımızın inkişafında oynadığı roldan danışmışdır.

Respublika Aşıqlar Birliyinin sədri, şair H.Arif aşıqların IV qurultayına hazırlıqla əlaqədar görülən işlər barədə məlumat vermişdir.

İnstitutun Azərbaycan dili kafedrasının müdiri M.Əliyev aşıq şerlərinin xüsusiyyətindən söz açmışdır.

Gecədə Aşıq Alı adına Bakı aşıqlar ansamblının üzvlərindən R.Məmmədov, U.Quliyeva, A.Həsənov, Ə.İbrahimov, balabançalan Ə.Cavadov çıxış etmişlər.

*“Ədəbiyyat və incəsənət” qəzeti, 16 dekabr 1983-cü il*

# “Retro görüş”ün ilk qonağı Siyavuş Kərimi olub

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Suraxanı rayon Heydər Əliyev Mərkəzində “Retro görüş” adlı yeni layihə çərçivəsində Xalq artisti, görkəmli bəstəkar, professor Siyavuş Kərimi ilə görüş keçirilib.




Görüşdə Xalq artistinin yaradıcılığı haqqında məlumat verilib. Bildirilib ki, Siyavuş Kərimi çox sayda musiqi əsərlərinin müəllifidir. Onu geniş xalq kütləsinə tanıdan lirik mahnılarıdır. O, bəstəkar və xalq mahnılarının gözəl aranjimançısı kimi də məşhurdur. Siyavuş Kərimi çox sayda teatr tamaşalarına yazdığı musiqi ilə müasir Azərbaycan teatr sənətinin inkişafına da öz töhfəsini verib. Yaradıcılığında kino musiqisi də mühüm yer tutur. Bəstəkarın bir sıra filmlərə yazdığı musiqi ekran əsərlərinin bədii təsir qüvvəsini daha da artırıb.

Bəstəkar çıxışında tədbirin təşkilinə görə təşəkkürünü bildirib və tamaşaçıların suallarını cavablandırıb.

Sonra tədbir bədii hissə ilə davam edib.

# Hələ ki, son deyil...

## Yaxud aktyorun “axırıncı arzu”su olmur

Onunla müsahibəni çoxdan qərarlaşdırmışdım. Şəki Dövlət Dram Teatrının ən qocaman aktyorudur. Hərçənd indi elə cavanlar var ki, ruhu da, aktyorluğu da 90-nın üstündədir. Amma qəhrəmanımda əksinə. Teatr festivalı ilə bağlı Şəkiyə səfərimiz (1–5 dekabr) zamanı bu bəyaz saç-saqqallı nurani insanı demək olar ki, hər yerdə gördüm.



Gah teatrın foyesindəki sərgini dolaşıb qəmgin-qəmgin gözləri yol çəkirdi, gah zalda ayrı-ayrı teatrların tamaşa öncəsi məşq, səhnə quraşdırması proseslərini izləyirdi, gah da həvəskarların vokal və plastika dərslərində gənclərin cərgəsində dayanırdı. Qısacası, teatrda, ruhu da bədəni kimi prosesdə idi.

Ona “Xanlar müəllim, onsuz də gedəcək yerimiz yoxdur. Siz teatrdan qopa bilmirsiniz, mən də burda, teatrda qonağam. Bəlkə oturub söhbət edək” təklifimə gülümsündü. Özüm qəsdən belə dedim. Çünki müsahibə vermək istəmədiyini bilirdim. Sağ olsun, məni yanıltmadı, söhbətimiz boyu keçmiş və indiki Şəki teatrı, onun həyatından danışdı.

Beləliklə, həmsöhbətim respublikanın Əməkdar artisti, Şəki Dövlət Dram Teatrının aktyoru Xanlar Həşimzadədir.

*– Şəki teatrı deyəndə ilk yada düşənlər sırasında siz varsınız.*

– Elədirsə, sevinərəm.

*– Şəkidə tamaşaçıların da çox zövqlü və tələbkar olduğu deyilir. Elədirmi?*

– Sözsüz ki, tamaşaçı, ya da müştəri deyək, həmişə tələbkar olur. Heç vaxt demir ki, bəhanələrin, arqumentin, səbəblərin var, ya yox. O, daim ən yaxşısını istəyir.

*– Bunu bilə-bilə bu teatr sizin üçün nə ifadə edir?*

– Həyatımın böyük bir hissəsidir və mən ona aşiqəm. Ümumiyyətlə, mən aktyorları zadəgan, teatrı da bir dəbdəbəli qəsr hesab edirəm. Yəni səhnə salonda, aktyor yuxarıdadırsa, mətləb aydındır.

*– Bu fikir həmişə birmənalı qarşılanmır.*

– Mən yaxşı mənada deyirəm ki, səhnə yuxarıda, hasil olan mətləblər ideya yüklüdür deyə, onu ifadə edənlər də mənən yuxarı məqamda dayanmalıdır. Dayanmalıdır ki, oradan səsləndirdikləri amal kimi qəbul olunsun.

*– Amma həm də deyirlər ki, aktyorun öz sözü olmur.*

– Bu fikir mənim xətrimə dəyir. Niyə olmur?! Məsələn, deyirlər filan əsər zəif və ya güclü əsərdir. Deməli, o zəifdən güclü nümunə hazırlanırsa, aktyor da öz sözünü deyir.

*– Anlaşılandır. Amma zəif əsərdən yaxşı tamaşa hazırlamaq heç də yaradıcı heyətin güc göstəricisi deyil.*

– Bəs nədir? Hə, yaxşı olar ki, o zəif əsər səhnəyə yol tapmasın. Amma nə etməli? O qədər olub ki, ucuz ətdən şorba düzəltmişik (gülür).

*– Mən də onu deyirəm də, Xanlar müəllim. Nə vacibdir ki, o ucuz ətdən şorba üçün bu qədər zəhmət-əziyyət çəkəsən?*

– Sözsüz ki, lazım deyil. Amma təəssüf ki, buna qərarı biz vermirik.

*– Yaxşı, o zaman rejissor-aktyor gücü bölgüsü neçənin neçəyə olur?*

– Rejissor lokomotivdir. Vaqon nə qədər yük götürsə də, onu lokomotiv dartır. Avtobusda sürücüdür rejissor. İllərdir bir şeyi anlamışam ki, əsgər həmişə var, komandir lazımdır. Çünki bacarıqlı komandir olanda əsgərlər də nəyəsə nail olur. Əbəs yerə kollektiv sənət ifadəsini işlətmirlər.

*– Amma hər aktyor da siz deyən fikirlə razılaşmır. Sənətkar var ki, “mən bir etüdümlə də tamaşaçını məftun edə bilirəm” deyir...*

– Boş sözdür. Götürək rəhmətlik Yaşar Nurini. Ona layiq rejissorlar olsaydı, şöhrəti dünyaya yayılardı.

*– Mübahisəli məsələdir. Üstəlik, adını çəkdiyiniz aktyorun potensialından kino və teatr sənətimizdə yetəri qədər istifadə olunub.*

– Düzdür, amma potensialının çox az miqdarına nisbətdə. Rejissorlar inciməsin, əyri oturub, düz danışaq da. Çox istərdim ki, bizim güclü rejissorlarımız çox olsun.

*– Deməli, teatr məktəbimiz rejissor sarıdan daha çox axsayır?*

– Rejissorlar hər an yetişmir axı, hər dönəm üçün 2, uzağı 3 nəfər olur. Gəlin, sayaq (rejissorları sayır və 10-a çatmır). Məsələn, rəhmətlik Vaqif Abbasov Moskvada oxumuşdu. Həyatını, faciəli ömür yolunu bilirsiniz deyə uzun danışmayacam. Amma o uzun yaşasaydı, bizim teatr indi başqa mərhələdə idi. Təəssüf ki, Bakıya gedəndən sonra yaradıcılığında o qədər də irəliləyə bilmədi. Ya da qoymadılar. Nə bilim, bəlkə də sağlamlığı imkan vermədi. Eləcə də zaman-zaman başqa rejissorlar işləmək imkanı, şəraiti tapmadı.

*– Siz də bu şəraitsizliyə etiraz olaraq getdiniz Rusiyaya? Deyəsən, rəhmətlik Fərman Şəkili ilə getmişdiniz.*

– Cavanlıq idi də. Çətin zamanlar oldu. Amma ora da sənət üçün getmişdim. Düşündük ki, gedib orda oxuyarıq, filmlərə çəkilərik. Ən azı rəhmətlik Əjdər İbrahimov ordaydı. Hesab elədik ki, nə isə edə bilərik.

*– Amma tərsinə oldu...*

– Hə, özümü “şinzavod”da tapdım.

*– Ona bir azdan qayıdacağıq. Şəki teatrında fəaliyyətinizdən danışaq. Hansı rejissorlarla işləmisiniz?*

– Vaqif Abbasov, Hüseynağa Atakişiyev, Cahangir Novruzov. O, bura gələndə gənc idi. Nikbin, həyatsevər, çox səmimi idi və biz onu hələ də eyni məhəbbətlə sevirik. Rəhmətlik Mərdan Feyzullayevə də işləmişəm. Təəssüf ki, o az işlədi. Sonra Mirbala Səlimli gəldi və biz yola onunla davam edirik.

*– Studiyadan, xalq teatrından gəlmisiniz deyə soruşuram: aktyor kimi sizin rejissorunuz, sənət üzrə müəlliminiz onlardan hansıdır?*

– Bölgü eləmirəm, məncə, hamısı.

*– Niyə sonradan aktyor sənəti üzrə təhsil almadınız? Nə mane oldu?*

– Tənbəlliyim (gülür). Hələ məktəbdə oxuyanda sənət barədə düşünürdüm. Sonra kəsildim, həvəsdən düşdüm. Tənbəllik zəhmət çəkib oxumağa qoymadı. Sonra bir çox gənclər kimi şöhrətpərəstlik hisslərim baş qaldırdı. Özünü tanıtmaq istəyi ilə bu sənəti seçdim. Düşündüm ki, aktyorluq əladır. Daş daşımırsan, ağır iş görüb, zavod-fabrikdə itib-batmırsan. Sənətdə, səhnədə, göz önündə olursan, dedim öz-özümə. Bu fikirlə rəhmətlik Fərmanla Şəki İpək Kombinatındakı dram dərnəyinə yazıldım. Onda Şəkidə dərnəklər çox idi. Yaxşı xalq teatrımız da vardı. Sonra imtahan verdim, kəsildim. Bir az da həvəsdən düşdüm. Əsgərliyə gedib-gəldim. Sonra çılğın arzularla “yox, buralar mənə dar gəlir” deyərək üz tutdum Moskvaya.

*– Tənbəlin arzuları reallaşdı?*

– Yox, əlbəttə ki. Halvadı bəyəm? Bəxtim gətirdi ki, nə orda, nə də burda mənə “yaramırsan” demədilər. Yəqin Allahın yazığı gəldi, dedi buna hardasa çörək verim də (gülür).

> “Səhnəyə yararlı ola-ola gedən, göndərilən aktyorların nisgili məni incidir. Yəqin bu aqibət məni də gözləyir...”

*– Yəqin sonra bütün fiziki ağır işlərin aktyoluqdan yüngül olduğunu da anladınız?!*

– Özü də necə. Həqiqətən də, bu sənətin mənəvi ağırlığı fiziki ağırlıqdan daha betər idi. Bunu zavodda işləyəndə anladım. Yadımdadır, briqadirimiz rusca “Xanlar, bu sənin çörəyindir” deyib şini göstərəndə üz-gözümün kirinə, əllərimin, üst-başımın qara-qurasına baxıb acıqla “Yox, bu mənim çörəyim olmayacaq” deyib arxama baxmadan çıxdım oradan. Elə o vaxtdan da burda – səhnədəyəm.



Deməli, mənim çörəyim burdadır. Bilirsiz, o an anladım ki, mən öz yerimdə deyiləm. Sağ olsun o briqadir. Məni ayıltdı və anladım ki, ali bir məqamı – səhnəni zavoda dəyişməklə böyük bir şey itirmişəm. Elə bil zadəganlıqdan lakeyliyə düşmüşdüm. Beləcə, Fərman da, mən də qayıtdıq. Onda artıq Hüseynağa müəllim burada idi. Proses sürətlə getdi, rollar, qastrollar, festivallar və illər keçdi.

*– Aktyor ömrünüzdən məmnun görünürsünüz...*

– Şükür, narazılığım yoxdur.

*– Sizcə, Bakı teatr mühitində daha tez nəzərə çarpardınız, yoxsa “daş düşdüyü yerdə ağırdır”?*

– Düzü, bu barədə düşünməmişəm. Amma təcrübə göstərir ki, gedənlərin çoxu parladı. Mən də seçilərdim, əminəm. Amma itib-batanlar da olur. Rəhmətlik Həsənağa Turabov 1992-ci ildə Fərmanla məni dəvət eləmişdi. Düzü, tənbəllikdən getmədim (gülür). O məni iki dəfə dəvət etdi. İkincidə televiziya, fərdi yaradıcılıq imkanları daha geniş idi. Anladım ki, yox, buranı qoyub gedə bilmərəm. Sənət gəmisindən düşüb qayığa minə bilmədim. Fərman istedadlı insan idi, o individuallığa getdi, mən edə bilmədim. Azərbaycan teatrı onun simasında böyük aktyorunu itirdi. Mən ondan çox şey öyrəndim, ruhu şad olsun.

*– Şəki teatrının tamaşa qalereyasında öz yeriniz, müxtəlif xarakterli xeyli rolunuz var. Baxıram, əsas planlarda adınız var.*

– Niyə elə hesab edirsiniz ki, rol arzum yoxdur? Məsələn, manyak rolunu oynamaq istəmişəm. Özü də dəli bir arzu ilə. O rol ki, bütün pislikləri etsin, sonra da qıvrıla-qıvrıla ölsün. Tamaşaçılar ləzzət alsın. Əsas da mən.

*– Deməli, mənfi qəhrəmanlar sizi daha çox cəlb edir?*

– Hə, amma az oynamışam. Bu arzu sonradan beynimə girib. Komediya, dram, faciə var, qalır bu formada özünü sınamaq. Amma məşhur obrazlar – Hamlet, Kral Lir, Otello məni heç vaxt cəlb eləməyib. Bu mənada mənfi obraz, onu tapmaq, ifadə etmək mənə daha maraqlı görünür.

*– Əlahəzrət 70-i salamlayaq?*

– Daha gəlib də, qapıda saxlamaq olmaz. Amma tələsib (gülürük).

*– 70 yaşlı zadəgan aktyor hazırda hansı tamaşa üzərində işləyir?*

– “Heç nədən hay-küy”də Leonato, “Kuraj ana və uşaqları”nda Keşiş. Bir də “Ulduzlar görüşəndə” adlı uşaq tamaşası hazırlanır, Xəzinədarı oynayıram. Baş rejissorumuz çox fədakardır, teatrı sevir, daim işləyir və bizi də ən yaxşısına sövq edir. Gördüyünüz kimi, teatrımızda qaynar yaradıcılıq həyatı var. Deməli, dayanmaq olmaz. İndi daha bilmirəm, “bəsdir, get, dincəl” deyəcəklər, ya yox. Amma nə qədər burdayam, sevə-sevə işləyəcəm. Çünki mənim üçün səhnə, bayaq dediyim kimi, zirvə uca məqamdır. Ora çıxmaq nə qədər çətindirsə, oradan enmək...

Onu da deyim, ürəyimdən gəldi. İndi qədir bilinmir. Baxın, səhnəyə yararlı ola-ola gedən, göndərilən aktyorların nisgili məni çox incidir. Bilirsiniz, elə bilirəm mən yeyirəm, onlar ac uşaq kimi mənə baxırlar. Yəqin bu aqibət məni də gözləyir. Sözsüz ki, mənəvi aclıqdan gedir söhbət. Bu heç. Ən əsası, gedənlərin yeri ya dolmur ya da çox çətin. Aktyor səhnədə olmayanda, ona həsrətlə baxanda xiffət edir, azarlayır və...

*– Xanlar müəllim, gəlin, sənətə vida söhbətini sonraya saxlayaq. Şəkidə “Heç nədən hay-küy” tamaşasında seyr etdik. “Kuraj ana və uşaqları”nın Bakı premyeranızda da gözləyəcəm. Sonra sağollaşmaqdan danışarıq. Gəncliyinizdə səhnədə şərqli cəngavər olmusunuz, 70-də də qərbli rahib kimi səhnəyə çıxırsınız.*

– Müqayisəniz xoşuma gəlsə də, gəlməsə də, inandırıcıdır (gülür). Əsas odur görüşək.

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi 16 – 21 dekabr

### Azərbaycan

**16 dekabr 1898** – Xalq rəssamı Qəzənfər Ələkbər oğlu Xalıqov (1898 – 1.3.1981) Bakıda anadan olub. “Sehrli xalat”, “İstintaq davam edir” filmlərində geyim rəssamı olub. “Nizaminin portreti”, “Firdovsinin dəfni” və s. əsərlərin müəllifidir.

**16 dekabr 1909** – Yazıçı-publisist, Əməkdar mədəniyyət işçisi Cahangir Rəcəb oğlu Gözəlov (1909 – 7.9.1999) Ağdam rayonunun Şıxbabalı kəndində anadan olub.

**16 dekabr 1922** – Ədəbiyyatşünas, Əməkdar mədəniyyət işçisi İmran Sultan oğlu Seyidov (1922 – 10.5.2001) Qubada doğulub. “Koroğlu” dastanını rus dilinə tərcümə edib.

**16 dekabr 1927** – Tarixçi alim, akademik Cəmil Bahadur oğlu Quliyev (1927 – 27.12.2010) Ağdamda doğulub. Azərbaycan Sovet Ensiklopediyasının baş redaktoru, Elmlər Akademiyasının vitse-prezidenti olub.

**16 dekabr 1934** – Şair, tərcüməçi, Əməkdar incəsənət xadimi Tofiq Qulam oğlu Bayram (1934 – 18.4.1991) Bakının Əmircan kəndində anadan olub. Kitabları: “Səninlə görüşəndə”, “Əsrin oyunu”, “Könlümdə yaşayanlar”, “Ay gecikən məhəbbətim” və s. Rus dilindən bədii tərcümələrin müəllifidir.

**16 dekabr 1952** – Əməkdar artist, müğənni Zöhrə Abdulla qızı Abdullayeva (1952 – 28.5.2021) Şuşa şəhərində anadan olub.

**16 dekabr 1979** – Məşhur cazmen, bəstəkar, Əməkdar artist Vaqif Əziz oğlu Mustafazadə (16.3.1940 – 1979) vəfat edib. Caz-muğamın yaradıcısıdır. Beynəlxalq müsabiqə və festivalların qalibi və laureatı olub.

**16 dekabr 2011** – Opera müğənnisi, SSRİ Xalq artisti Firəngiz Yusif qızı Əhmədova (23.9.1928 – 2011) vəfat edib. 1951–1988-ci illərdə Akademik Opera və Balet Teatrının solisti olub.

**17 dekabr 1905** – Xalq şairi Osman Sarıvəlli (Osman Abdulla oğlu Qurbanov; 1905 – 3.7.1990) Qazax rayonunun Sarıvəlli (İkinci Şıxlı) kəndində anadan olub. Sözlərinə mahnılar yazılıb.

**17 dekabr 1924** – Filologiya elmləri doktoru, mətbuat xadimi, Əməkdar jurnalist, professor Şirməmməd Ağaməmməd oğlu Hüseynov (1924 – 24.6.2019) Şəkidə doğulub.

**17 dekabr 1987** – Tanınmış rəngkar Fərhad İbrahim oğlu Hacıyev (29.8.1929 – 1987) vəfat edib. Azərbaycanda bərpa rəssamlığının əsasını qoyub.

**17 dekabr 1993** – Xalq yazıçısı, dramaturq, ictimai xadim, Sosialist Əməyi Qəhrəmanı Mirzə Əjdər oğlu İbrahimov (28.10.1911 – 1993) vəfat edib. “Gələcək gün”, “Böyük dayaq” romanları, “Həyat”, “Kəndçi qızı” pyesləri və s. əsərlərin müəllifidir.

**18 dekabr 1928** – Tanınmış xanəndə Qulu Rüstəm oğlu Əsgərov (1928 – 11.6.1987) Salyan rayonunda doğulub. Muğam və xalq mahnılarının bənzərsiz ifaçısı olub, opera tamaşalarında Məcnun (Ü.Hacıbəyli – “Leyli və Məcnun”), Şah İsmayıl (M.Maqomayev – “Şah İsmayıl”) və s. rollarda çıxış edib.

**18 dekabr 1930** – Tarix elmləri doktoru, professor Süleyman Sərdar oğlu Əliyarlı (1930 – 16.1.2014) Beyləqan rayonunun Şahsevən kəndində anadan olub.

**18 dekabr 1954** – Tanınmış teatrşünas, rejissor Şaiq Cabir oğlu Səfərov (1954 – 27.1.2022) Bakıda anadan olub.

**18 dekabr 1957** – Yazıçı, dramaturq, Əməkdar incəsənət xadimi Əyyub Cəbrayıl oğlu Abbasov (1905–1957) vəfat edib. “Zəngəzur” romanı, “Şəfəq”, “Bahar nəğməsi” və s. pyeslərin müəllifidir.

**19 dekabr 1921** – Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Dövlət mükafatı laureatı Mikayıl Hüseyn oğlu Abdullayev (1921 – 21.8.2002) Bakıda anadan olub. “Çəltikçi qızlar”, “İmadəddin Nəsimi” və s. məşhur əsərlərin, “Nizami” metro stansiyasının bədii tərtibatının müəllifidir. “Hindistan” silsiləsinə görə Cəvahirləl Nehru mükafatına layiq görülüb.

**19 dekabr 1947** – Əməkdar incəsənət xadimi, rejissor, dramaturq Rəhman Balarza oğlu Əlizadə (1947 – 16.3.2013) Bakıda doğulub.

**19 dekabr 1950** – Xalq artisti Gülşən Ağadadaş qızı Qurbanova (1950 – 17.11.2006) anadan olub.

**19 dekabr 2022** – Əməkdar incəsənət xadimi, dirijor Kazım Ağalar oğlu Əliverdibəyov (27.11.1934 – 2022) vəfat edib.

**20 dekabr 1905** – Ədəbiyyatşünas Atababa Daşdəmir oğlu Musaxanlı (1905 – 14.8.1941) Bakıda doğulub. “Kitabi-Dədə Qorqud”un ilk tədqiqatçılarından biridir. Repressiya qurbanı olub.

**20 dekabr 1939** – Teatrşünas, sənətşünaslıq namizədi Məmmədşah Qədim oğlu Atayev (1939–2011) anadan olub.

**20 dekabr 2014** – Xalq rəssamı, Dövlət mükafatı laureatı Oqtay Seyid Hüseyn oğlu Sadıqzadə (21.2.1921 – 2014) vəfat edib.

**20 dekabr 2021** – Əməkdar artist Elşən Şıxəli oğlu Şirəliyev (2.10.1962 – 2021) vəfat edib. Gənc Tamaşaçılar Teatrının aktyoru olub.

**21 dekabr 1913** – Şair, tərcüməçi Ələkbər Ziyatay (Ələkbər Həsən oğlu Cəfərov; 1913 – 2.7.1982) Gəncədə doğulub. Bir çox şeirlərinə mahnılar bəstələnib. Rus dilindən ədəbi tərcümələr edib.

**21 dekabr 1916** – Yazıçı, Əməkdar incəsənət xadimi Süleyman Vəli oğlu Vəliyev (1916 – 7.3.1996) Bakının Ramana kəndində doğulub. “Şor cüllütü” povesti əsasında “Qara gölün cəngavərləri” filmi çəkilib.

**21 dekabr 1922** – Ədəbiyyatşünas, yazıçı, Əməkdar elm xadimi Kamran Dadaş oğlu Məmmədov (1922 – 6.4.1989) anadan olub.

**21 dekabr 1923** – Xalq artisti, müğənni Tükəzban Məhərrəm qızı İsmayılova (1923 – 24.3.2008) anadan olub.

**21 dekabr 1923** – Görkəmli tarixçi və şərqşünas, akademik, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadov (1923 – 21.2.1997) Astarada anadan olub.

**21 dekabr 1929** – Mədəniyyət və elm xadimi, fəlsəfə elmləri namizədi Zakir Nəriman oğlu Bağırov (1929 – 31.3.1989) Şuşada anadan olub. 1971-1988-ci illərdə Azərbaycanın mədəniyyət naziri işləyib.

**21 dekabr 2020** – Xalq artisti Safurə Ağabala qızı İbrahimova (27.12.1938 – 2020) vəfat edib. Milli Dram Teatrında çalışıb. “Sevil”, “Arşın mal alan”, “Qatır Məmməd”, “Alma almaya bənzər” və s. filmlərdə çəkilib.

**21 dekabr 2022** – Xalq artisti, tarzən Fikrət Süleyman oğlu Verdiyev (2.9.1947 – 2022) vəfat edib. “Göygöl” xalq çalğı alətləri ansamblının yaradıcısı, Gəncə Dövlət Filarmoniyasının bədii rəhbəri olub.

### Dünya

**16 dekabr 1770** – Alman bəstəkarı, dirijor və pianoçu Lüdviq van Bethoven (Ludwig van Beethoven; 1770 – 26.3.1827) anadan olub.

**16 dekabr 1775** – İngilis realist ədəbiyyatında “qadın romanları”nın banisi Ceyn Ostin (Jane Austen; 1775–1817) anadan olub.

**16 dekabr 1866** – Rus rəssamı, təsviri sənətdə abstraksionizmin banilərindən Vasili Kandinski (1866–1944) anadan olub.

**17 dekabr 1893** – Alman teatr rejissoru və nəzəriyyəçisi Ervin Piksator (Erwin Piscator; 1893-1966) anadan olub.

**18 dekabr 1921** – SSRİ Xalq artisti, aktyor, sirk ustası Yuri Vladimiroviç Nikulin (1921 – 21.8.1997) anadan olub.

**19 dekabr 1864** – Alman bəstəkarı Adolf Zanberqer (Adolf Sandberger; 1864–1943) anadan olub.

**19 dekabr 1915** – Fransız müğənnisi və aktrisası Edit Piaf (Edith Piaf – Edith Giovanna Gassion; 1915 – 10.10.1963) anadan olub.

**20 dekabr 1873** – Türk şairi Mehmet Akif Ersoy (1873 – 27.12.1936) İstanbulda doğulub. Türkiyə Cümhuriyyətinin himni (“İstiqlal marşı”), “Çanakkala şəhidlərinə” poetik dastan, “Haqqın səsləri” şeirlər toplusu və s. əsərlərin müəllifidir.

**20 dekabr 1915** – Türk yazıçısı Əziz Nesin (Mehmet Nusret Nesin; 1915 – 6.7.1995) anadan olub. Kitabları bir çox xarici dillərə çevrilib, o cümlədən hələ sovet dövründə Azərbaycanda çap olunub.

**21 dekabr 1639** – Fransız dramaturqu Jan Rasin (Jean-Baptiste Racine; 1639 –21.4.1699) anadan olub. “İfigeniya”, “Fedra” kimi dramları dünyanın bir çox teatrlarında səhnəyə qoyulub.

**21 dekabr 1840** – Türk şairi və yazıçısı, teatr xadimi Namiq Kamal (1840 – 2.12.1888) anadan olub. Əsərləri: “İntibah”, “Cezmi”, “Şah”, “Vətən, yaxud Silistre” və s.

**21 dekabr 1917** – Alman yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1972) laureatı Henrix Böll (Heinrich Theodor Böll; 1917 – 16.7.1985) anadan olub. Əsərləri: “Saat onun yarısında bilyard”, “Klounun gözü ilə”, “Mələk susurdu”, “Əsgər mirası” və s.

**Hazırladı: V.Orxan**

№94-95 (2160)
20 dekabr 2024
www.medeniyyet.az

# UNESCO-da “Divanü lüğat-it-türk”ün 950 illiyi qeyd olunub

## Türk dilinin ən qədim lüğəti mədəniyyətləri və tarixi birləşdirən körpüdür

*əvvəli səh. 1-də*

Açılışda çıxış edən Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova ortaq türk mədəni irsinin ən qiymətli əsərlərindən olan “Divanü lüğat-it-türk”ün 950 illiyinin UNESCO çərçivəsində qeyd olunmasının əhəmiyyətindən, bu əsərin tarixi mahiyyəti və hazırda mədəniyyətlərarası dialoqda oynadığı rolundan söz açıb.

UNESCO baş direktorunun müavini Firmin Eduard Matoko çıxışında Mahmud Kaşğarinin əsərinin təkcə Türk dünyası deyil, həm də qlobal mədəni irs üçün önəmini vurğulayıb, 950 yaşlı lüğəti türk xalqlarının tarixini əks etdirən ensiklopediya adlandırıb.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli, institutun Nitq mədəniyyəti və monitorinq şöbəsinin müdiri dosent Vəfa Abdullayeva-Nəbiyeva “Divanü lüğat-it-türk” əsərinin Azərbaycanda tədqiqi, Azərbaycan dilinə tərcüməsi və nəşri haqqında ətraflı məlumat veriblər.

Azərbaycan nümayəndə heyətinin üzvləri çıxışlarında Prezident İlham Əliyevin “Bizim ailəmiz Türk dünyasıdır!” kəlamını xatırladaraq, beynəlxalq konfransın məhz bu fikrin davamı olduğunu diqqətə çatdırıblar.

Tədbir çərçivəsində orijinalı İstanbulda Ali Emiri Efendi kitabxanasında saxlanılan “Divanü lüğat-it-türk”ün xüsusi hazırlanmış replikası, eləcə də əsərin tarixini və Mahmud Kaşğariyə dair məlumatları özündə əks etdirən stendlər nümayiş olunub.



Qeyd edək ki, Mahmud Kaşğarinin tərtib etdiyi (1074-cü il) “Divanü lüğat-it-türk” (Türk ləhcələri və dilləri məcmuəsi) əsərinin 950 illiyi 2024–2025-ci illər üçün UNESCO-nun əlaqəli ildönümləri siyahısına daxil edilib. Bu qərar 2023-cü ildə UNESCO-nun Baş Konfransının 42-ci sessiyasında Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Özbəkistanın birgə təklifi əsasında Macarıstan, Mavritaniya, Mərakeş, Qətər və Tacikistanın dəstəyi ilə qəbul olunub.



Tədbirdə Türk dövlətlərinin Parisdə akkreditə olunmuş səfirləri, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Türkmənistan, Özbəkistan, Macarıstan və digər ölkələrdən alimlər, beynəlxalq qurumların nümayəndələri, Türk dünyasının tanınmış ziyalıları iştirak və çıxış ediblər.

UNESCO yanında daimi nümayəndə E.Abdullayev konfransda yekun çıxış edərək, “Divanü lüğat-it-türk”ün linqvistik şedevrdən qat-qat artıq, mədəniyyətləri, dilləri və tarixi birləşdirən körpü olduğunu bildirib.

Sonda UNESCO üzrə Azərbaycan Milli Komissiyasının dəstəyi ilə nəşr edilmiş “Mahmud Kaşğarinin “Divanü lüğat-it-türk” kitabının təqdimatı olub.

# Azərbaycanlı rəssamın Moskvadakı “Nar dastanı”



Moskvadakı “Paytaxt rəssamlar qalereyası”nda Azərbaycanın və Rusiyanın Əməkdar rəssamı Əsgər Məmmədovun “Nar dastanı” adlı sərgisi təşkil edilib. Sərgidə müəllifin 40-dan çox əsəri – natürmort, portret, mənzərə, qrafika nümayiş etdirilir.

Rəssam qeyd edib ki, nar və onunla bağlı qədim adət-ənənələr Azərbaycan xalqının həyatında, folklorunda, mifologiyasında xüsusi yer tutur: “Mənim yaradıcılığımda da narın xüsusi yeri var. Nar kainatın görünüşüdür, onun dənələri isə həm də səma cisimlərini əks etdirir və mənim üçün onun hər bir dənəsi tam bir dünyadır. Ümummilli lider Heydər Əliyevin bizə vəsiyyət etdiyi kimi, Vətəndən uzaqlarda yaşayan azərbaycanlılar öz milli adət-ənənələrini, dillərini unutmamalıdır. Əsərlərimdə xalqımızın adət-ənənələrini, ruhunu çatdırmağa çalışıram”, - deyə o bildirib.



Əsgər Məmmədov Qarabağda dünyaya göz açıb. Gənc rəssam olarkən o, faciə ilə üzləşib: evində baş verən yanğın zamanı bütün əsərləri yanıb. Amma sənətkar həmişə ədalətin təntənəsinə inanıb: “İkinci Qarabağ müharibəsindən əvvəl Ağdamda sərgim keçirilirdi. Həmin vaxt Ağdamın bir hissəsi işğal altında idi. Rəsmlərimin nümayiş olunduğu binanın pəncərəsindən erməni postları, onların arxasında isə bir addım məsafəsində olan doğma torpaqlarımız görünürdü. O zaman “Xarıbülbül” tablosunun yaradılması ideyası ağlıma gəldi, kətanda təsvir olunan, qələbəmizin simvolu olan Xarıbülbülə uzanan qanayan əl”.

Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Tatyana Şirokova bildirib ki, Əsgər Məmmədovun yaradıcılığı ilə 15 ildir ki, tanışam: “Nar dastanı” sərgisi məndə dərin təəssürat yaratdı. Rəsmlərdəki nar cücərtiləri bu gün çox aktual olan sülhə çağırışdır. Əsgər Məmmədov incə sənətkar, gözəl insandır və mən ona bundan sonra da yaradıcılıq uğurları arzulayıram”.

Əsgər Məmmədov Rusiya Rəssamlar İttifaqının və Rusiya Kinematoqrafçılar İttifaqının üzvü, Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvüdür. Rəssamın fərdi sərgiləri Fransa, İspaniya, İsrail, Türkiyə, Latviya, Rusiya və digər ölkələrdə keçirilib.

# Şopenin naməlum valsının not yazısı tapılıb



Nyu-Yorkdakı Morqan Kitabxana-Muzeyində məşhur polyak bəstəkarı Frederik Şopenin (1810–1849) naməlum valsının not əlyazması tapılıb.

Xarici medianın məlumatına görə, not yazısı 2019-cu ildə muzeyə vəsiyyət edilib, lakin koronavirus pandemiyası səbəbindən lazımi kataloqlaşdırmadan keçməyib. Əlyazma Şopenin əli ilə yazılmış kimi qəbul edilib, lakin onun imzası olmayıb.

Müəllifin əlyazmasını, dəst-xəttini və kağızı tədqiq edən mütəxəssislər belə qənaətə gəliblər ki, əsərin müəllifliyi Şopenə məxsusdur. Not əlyazması 1830–1835-ci illərə aiddir.

Şopenin yeni aşkarlanan valsının ilk ifaçısı çinli pianoçu Lang Lan olub. İfa təxminən 80 saniyə davam edir.

# Teylor Sviftin çəkməsinin dabanı

## Müğənninin pərəstişkarına sərvət gətirib

Dünyaca ünlü amerikalı müğənni Teylor Sviftin (Taylor Swift) Rio-de-Janeyro şəhərindəki (Braziliya) konserti zamanı çəkməsinin dabanının qopması xəstəxanada xərçənglə çarpışan bir nəfərin həyatını xilas edib.



Səhnədə ayaqqabısının dabanının qopduğunu görən müğənni onu tamaşaçılara tərəf tullayıb və Felipe Konrado adlı pərəstişkar dabanı havada tutub. Bu, bir növ göydən onun üzərinə düşən sərvət imiş.

F.Konrado xatırlayır ki, müğənni səhnədə qəfildən dönüb ona tərəf nəsə atıb: “Mən onu havada tutdum və nə olduğuna fikir vermədən dərhal çantama qoydum. Yalnız bir də çantaya baxanda başa düşdüm ki, mən indicə orijinal “Eras Tour” qarderobundan tarixi bir əşya əldə etmişəm”.

O, bir müddət əvvəl xərçəng diaqnozu qoyulan 37 yaşlı bacısı Anjelanın müalicəsini ödəmək üçün ulduz sənətçinin çəkməsinin dabanını satışa çıxarıb. Bu xəbər böyük rezonans doğurub və Sviftin pərəstişkarları Konradonun hekayəsindən təsirlənərək onun bacısının müalicəsi üçün pul toplamaq üçün kampaniya başladıblar. Onlar həmçinin Konradonu çəkmə dabanını satmamağa razı salıblar.

Nəticədə Teylor Sviftin braziliyalı pərəstişkarının bacısı birinci müalicə kursunu bitirib.

“Bacım özünü yaxşı hiss edir. Bir ayaqqabı dabanı, lap nağıllarda olduğu kimi, bizi çətinlikdən xilas etdi. Yuxuda belə bunu görəcəyimi təsəvvür etməzdim. Bu mənə Zoluşka hekayəsini xatırladır”, – deyə o bildirib.

Qeyd edək ki, amerikalı müğənninin 2023-cü ilin martından 2024-cü ilin dekabrınadək davam edən “The Eras Tour” ümumilikdə 152 konsertdən ibarət olub. Əsasən stadionlarda keçirilən konsertlərə orta hesabla 50-60 min tamaşaçı gəlib.

Dünya üzrə zənginlərin varidatını hesablayan “Forbes”in məlumatına görə, 34 yaşlı Teylor Svift 2024-cü ildə “milyarderlər klubu”na daxil olub. Hazırda onun sərvətinin 1,6 milyard dollara çatdığı və musiqi sənayesinin ən zəngin qadını olduğu bildirilir.

**V.Orxan**

# Varidatı 50 ölkənin cəmi sərvətindən çoxdur

“SpaceX” və “Tesla”nın qurucusu, “X” (keçmiş “Tvitter”) sosial şəbəkəsinin sahibi İlon Maskın sərvəti dekabrda 455 milyard dollara çatıb.

İlon Maskın varidatı dünyanın ən varlı şəxslərinin siyahısında 2-ci olan Ceff Bezosun (“Amazon” şirkətinin qurucusu) sərvətini (246 milyard) təxminən iki dəfə üstələyir. Bu sərvətlə Mask dünyanın bir çox ölkələrindən də qat-qat varlı sayılır.

Hazırda dünyada ümumi daxili məhsulu (ÜDM) 455 milyarddan çox olan, yəni İlon Maskdan varlı sayılacaq cəmi 33 dövlət var.

Dünyanın 160 ölkəsində isə ÜDM-in həcmi İlon Maskın sərvətindən azdır. Onların sırasında İran (402 milyard dollar), Misir (396 milyard), Pakistan (338 milyard), Finlandiya (300 milyard), Portuqaliya (287 milyard), Qətər (236 milyard dollar) kimi ölkələr var.

Bundan əlavə, amerikalı milyarderin sərvəti aralarında Moldova (17 milyard), Qırğızıstan (14 milyard), Tacikistanın (12 milyard) da yer aldığı 50 ölkənin ÜDM-in cəmindən (440 milyard dollar) çoxdur.

## Xronoqraf

# Tarixdə bu gün

## Olaylar, faktlar (16 – 22 dekabr)



### 70 il əvvəl...

**19 dekabr 1954-cü ildə** Parisdə Avropa Şurası ölkələrinin hökumət başçıları tərəfindən “Avropa mədəniyyət Konvensiyası” imzalanıb. Konvensiya 5 may 1955-ci ildə qüvvəyə minib.

### 61 il əvvəl...



**21-22 dekabr 1963-cü ildə** Kiprdə yunan silahlı dəstələri türk əhalisinə qarşı basqınlar həyata keçiriblər. Afinanın dəstək verdiyi EOKA təşkilatının silahlıları yüzlərlə türkü qətlə yetiriblər. Bu qırğınlar tarixə “Qanlı Milad” adı ilə düşüb. Yunan və türk icmalarının təmsilçiliyi ilə qurulan (1960) konfederativ dövlət süqut edib.

### 38 il əvvəl...

**16 dekabr 1986-cı ildə** Qazaxıstanda kütləvi antisovet çıxışı olub. Moskva tərəfindən Qazaxıstan KP MK-nın birinci katibi vəzifəsinə rus Q.Kolbinin təyin edilməsi Almatıda tələbələrin kütləvi aksiyasını doğurub. Aksiyalar üç gün sürüb və hərbi qüvvə tətbiqi ilə yatırılıb. Qazaxıstan müstəqilliyini elan edəndən sonra 16 dekabr Milli Dirçəliş Günü kimi qeyd edilir.

### 35 il əvvəl...

**16 dekabr 1989-cu ildə** Rumıniyanın macarlar yaşayan Timişoare şəhərində Nikolae Çauşeskunun kommunist diktaturasına qarşı üsyan başlayıb. Çauşesku etirazları yatırmaq üçün qoşun hissələri göndərdi, yüzlərlə insan həlak oldu. Lakin inqilabı yatırmaq mümkün olmadı və bir həftə içində Çauşesku rejimi süqut etdi. 25 dekabrda o, həyat yoldaşı Yelene Çauşesku ilə birlikdə edam edildi.

### 33 il əvvəl...



**21 dekabr 1991-ci ildə** Qazaxıstanın Almatı şəhərində Müstəqil Dövlətlər Birliyinin yaradılması haqqında Bəyannamə imzalanıb. Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Azərbaycan, Ermənistan və Moldova 8 dekabrda Rusiya-Ukrayna-Belarus üçlüyünün imzaladığı “Belovejsk sazişi”nə (SSRİ-yə xitam verilməsi) qoşulublar. Azərbaycanda parlament Almatıda Bəyannaməsini ratifikasiya etmədi və ölkəmiz iki il sonra, 1993-cü ilin 24 sentyabrında MDB-yə rəsmən üzv oldu. Həmin ilin dekabrında Gürcüstan da MDB-yə qoşuldu.

### 31 il əvvəl...

**22 dekabr 1993-cü ildə** Ermənistanın işğalçı qüvvələrinin hücumlarını dəf edən Azərbaycan Milli Ordusunun hissələri Füzuli rayonunun Arazboyu yaşayış məntəqələri istiqamətində əks-hücuma keçiblər. Uğurlu əməliyyat nəticəsində 1994-cü il yanvarın əvvəlində rayonun bir sıra kəndləri və Horadiz qəsəbəsi işğaldan azad edildi.

### 27 il əvvəl...

**18 dekabr 1997-ci ildə** Prezident Heydər Əliyev “1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi sürətdə deportasiyası haqqında” fərman imzalayıb. Fərmanda 100 minə yaxın azərbaycanlının ata-baba yurdlarından deportasiyasına dair SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr və 1948-ci il 10 mart tarixli qərarlarına siyasi qiymət verilir, deportasiya aktlarının XIX əsrin əvvəlindən başlayaraq azərbaycanlılara qarşı həyata keçirilmiş təqib və soyqırımı siyasətinin tərkib hissəsi olduğu vurğulanırdı.

### 10 il əvvəl...

**18 dekabr 2014-cü ildə** Prezident İlham Əliyevin müvafiq fərmanı ilə Mədəniyyət və Turizm Nazirliyi (2018-ci ildən Mədəniyyət Nazirliyi) yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti yaradılıb.

**Hazırladı: V.Orxan**

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının kollektivi kitabxananın Ölkəşünaslıq və milli ədəbiyyatın təbliği şöbəsinin müdiri

**Leyla xanım Qafarovanın**

qəfil vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

“Mədəniyyət” qəzeti redaksiyasının kollektivi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlıya bacısı

**Leyla xanım Qafarovanın**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2893
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641